
AZERBAIJAN
AIRLINES
2024
DAYANIQLILIQ
HESABATI

MÜNDƏRİCAT

İxtisarlar və Akronimlər 3
Şirkət Prezidentinin Müraciəti 4
Şirkət haqqında 7
- Şirkətə baxış 8
- 2024-cü ilin əsas nailiyyətləri və mükafatları 10
- Qlobal İqlim Dialoquna Töhfə: COP29 11

Hesabat haqqında 12
- Əhatə dairəsi və hüdudları 13
- Hesabat Standartları 13
- Maraqlı Tərəflərlərlə qarşılıqlı əlaqə 14

Prioritetləri Tərəqqiyə çevirmək 16
- Əsas Mövzuların Müəyyən edilməsi 17
- BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə uyğunlaşma 24

Sosial Məsuliyyət – təməlimizdir 36
- İşçi Qüvvəsinin Rifahı və İnklüziv Mədəniyyət 37
- İşçilərin Öyrənmə Prosesi və Potensialının 43
- 2024-cü İldə Təlimlərə Dair İcmal 44
- İşçilərin sağlamlığı və təhlükəsizliyi 45
- İcmanın İştirakı və KSM Təşəbbüsləri 47

Əməliyyat kompasımız 49
- Müştəriyönümlü Yanaşma 56

İdarəetmə Prinsiplərimiz 62
- Təşkilati İdarəetmə Sistemi 63
- Müşahidə Şurası 65
- Komitələr 66
- Risklərin İdarə Edilməsi və Hesabatlılıq 67
- Etik Biznes Təcrübələri 68
- İqtisadi Təsirimiz və Maliyyə Fəaliyyətimiz 69
- Data-nın İdarə Edilməsi 72
- Təchizat Zənciri 73

Ətraf Mühit üzrə Öhdəliyimiz 75
- Ətraf Mühitin İdarə Edilməsinin Gücləndirilməsi 77
- İXQ Emissiyaları üzrə Göstəricilər 79
- Enerjinin Effektiv İdarə edilməsi 83
- Məsuliyyətli su istehlakı 85
- Tullantıların idarə olunması 86

Dayanıqlı Gələcəyə Baxışımız 88
ESG Göstəriciləri və Qoşmalar 90
- Emissiyaların Hesablanması Metodologiyası 91
- GRI indeksi 92
- SASB indeksi 100
- Fəaliyyət Göstəriciləri 101
- Əlaqə məlumatı 110



İXTİSARLAR VƏ AKRONİMLƏR

AAQ	Azərbaycan Aviasiya Qaydaları
AOG	Təyyarə Yerdə
BA	Bakalavr dərəcəsi
B.Sc.	Elmlər üzrə bakalavr
CAMO	Dayanıqlı Uçuşa Yararlılığın İdarə Edilməsi Təşkilatı
CANSO	Mülki Hava Naviqasiya Xidmətləri Təşkilatı
OKQ	Mövcud Oturacaq Kilometrinə görə qiymət
CEO	Baş icraçı direktor
MDB	Müstəqil Dövlətlər Birliyi
QSC	Qapalı Səhmdar Cəmiyyəti
MT	Maraqların toqquşması
COP29	Tərəflər Konfransının 29-cu iclası
COSO	Sponsor Təşkilatlar Komitəsi
CRM	Müştəri Münasibətlərinin İdarə Edilməsi
KSM	Korporativ Sosial Məsuliyyət
DdoS	DdoS tipli kiber hücum
EASA	Avropa Birliyinin Aviasiya Təhlükəsizliyi Agentliyi
ƏMTQ	Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi
EMS	Ətraf Mühitin İdarəetmə Sistemi
ERP	Müəssisə Resurslarının Planlaşdırılması
ESG	Ətraf Mühit, Sosial və Korporativ İdarəetmə
GAİN	Green Aviation Insights
QC	Qiqacoul
İXQ	İstixana qazı
İXQ Protokolu	İstixana qazı protokolu
İRU	İdarəetmə, Risk və Uyğunluq
GRI	Qlobal Hesabat Təşəbbüsü

SƏTƏMM və KN	Sağlamlıq, Əməyin Mühafizəsi, Ətraf Mühitin Mühafizəsi və Keyfiyyətə Nəzarət
İHK	İstilik, Havalandırma və Kondisioner
IATA	Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası
ICAO	Beynəlxalq Mülki Aviasiya Təşkilatı
IDC	Hücumun aşkarlanması sistemi
IPSS	İqlim Dəyişmələri üzrə Hökumətlərarası Panel
IPS	Hücumun qarşısının alınması sistemi
İTİS	İnformasiya Təhlükəsizliyi İdarəetmə Sistemi
LLM	Hüquq sahəsində magistr dərəcəsi
LTI	Xəsarət səbəbindən İtirilmiş İş Saatları
LTIFR	Xəsarət səbəbindən İtirilmiş İş Saatlarının Tezliyi
LTO	Eniş və Qalxma
M.Sc.	Elmlər magistri
MBA	Biznesin idarə edilməsi üzrə magistr
ODTÜ	Orta Şərq Texniki Universiteti
ÇFA	Çoxfaktorlu autentifikasiya
MAA	Milli Aviasiya Akademiyası
QHT	Qeyri-Hökumət Təşkilatı
NPS	Net Promoter Balı
İƏİT	İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
OAİ	Orijinal Avadanlıq İstehsalçısı
ƏMT	Əməyin Mühafizəsi və Təhlükəsizliyi
ASC	Açıq Səhmdar Cəmiyyəti
PKI	Açıq Açar İnfrastruktur
FMV	Fərdi Mühafizə Vasitələri
RFQ	Qiymət sorğusu
RPK	Ödənişli oturacaq sayı km-lə

RTK	Ton-kilometrləri üzrə gəlir
SAF	Dayanıqlı Aviasiya Yanacağı
XTTQ	Xarici Təyyarələrin Təhlükəsizliyinin Qiymətləndirilməsi
SASB	Dayanıqlılıq üzrə sMühasibat Uçotu Standartları Şurası
TİS	Təhlükəsizlik İdarəetmə Sistemi
TƏM	Təhlükəsizlik Əməliyyatları Mərkəzi
tCO_2e	Tonlarla Karbon Dioksidi Ekvivalenti
NST	Nəqliyyat Səviyyəsinin Təhlükəsizliyi
BMT	Birləşmiş Millətlər Təşkilatı
BMT DİM	Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədi
UNGC	Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişi
TKS	Təsdiqlənmiş Karbon Standartı
WAF	Veb Tətbiqi üçün Firewall



ŞİRKƏT PREZİDENTİNİN MÜRACİƏTİ

Dəyərli tərəfdaşlarımız,



2024-cü il “Azərbaycan Hava Yolları” QSC üçün transformasiya ili olub, belə ki, bu il şirkətimizin əməliyyat mükəmməlliyinin gücləndirilməsi, innovativ həllərin tətbiqi və ətraf mühitin mühafizəsi sahəsində öhdəliklərimizin yerinə yetirilməsi istiqamətlərində mühüm nailiyyətlər əldə olunub.

2024-cü il “Yaşıl Dünya Naminə Həmrəyik ili” çərçivəsində və Bakının COP29-a ev sahibliyi etməsi ilə AZAL dayanıqlılıq göstəricilərini təkmilləşdirmək və qlobal iqlim gündəliyinə töhfə vermək məqsədilə mühüm addımlar atıb.

Keçən il ərzində AZAL regional aviasiyası kimi mövqeyini möhkəmləndirib. Biz 34,000-dən çox uçuş həyata keçirməklə şəbəkəmizi 63 istiqamətə qədər genişləndirdik ki, bu da, 2022-ci illə müqayisədə iki dəfədən çox artım deməkdir. Sərnişin bazamız 2023-cü ildəki 2,9 milyon nəfərdən 4 milyondan çox sərnişinə yüksəlib. Bu, həm pandemiyadan sonra davam edən biznesin inkişaf və bərpa prosesini, həm də səyahətçilərimizin AZAL-a artan etimadını əks etdirir.

Şirkətimizin dayanıqlı inkişaf strategiyasında təyyara donanmasının modernləşdirilməsinə mühüm investisiyalar edilir. Biz 2032-ci ilə qədər 30-dan çox yeni nəsil təyyarənin alınmasına dair razılaşma əldə etmişik, təyyara parkının uzunmüddətli yenilənməsi inkişaf strategiyamızın mühüm istiqamətidir. AZAL-ın dekarbonizasiya hədəflərinə və dayanıqlılıq öhdəliklərimizə dəstək olaraq bu yeni nəsil təyyarələr yanacaq səmərəliliyinin artırılması və emissiyaların azaldılması məqsədilə optimallaşdırılıb. Uçuş şəbəkəmiz genişləndiyi dövrdə biz rəqəmsal transformasiya həlləri ilə müştəri təcrübəsinin daha da yaxşılaşmasını prioritet seçmişik. 2024-cü ildə yenilənmiş veb saytımızda və mobil tətbiqimizdə real vaxt rejimində uçuşların izlənməsi, ödənişlərin rahat icrası və daha təkmil sifariş seçimlərini təqdim etdik. AZAL Miles proqramımız da təkmilləşdirildi, müştərilərimizə daha rahat prioritet xidmətlər, pulsuz oturacaq seçimi və növbəsiz təyyarəyə minik kimi faydalı üstünlüklər təklif edən Klassik, Gümüş, Qızıl, Platin və Elit kateqoriyalar üzrə imkanlar təklif olunur.

COP29 çərçivəsində AZAL, IATA ilə birlikdə “Beynəlxalq Aviasiya və İqlim Dəyişikliyi” adlı yüksək səviyyəli sessiya təşkil edərək, ən böyük qlobal iqlim konfransının gündəliyinin icrasında mühüm rol oynayıb. Bu tədbir hava nəqliyyatının dekarbonizasiyası üçün qlobal səviyyədə maraq doğuran mövzuları müzakirə etmək üçün dəyərli bir platforma imkanı yaratdı. Biz COP-29-da fəal iştirak etməklə iqlim dəyişikliyinin qarşısının alınmasında qlobal tərəfdaşlığa hazır olduğumuzu nümayiş etdirdik. Xüsusilə də minlərlə tədbir iştirakçısının bu mötəbər tədbirdə iştirak etməsi üçün maneəsiz səyahətini təmin etdiyimiz üçün qürur duyuruq.

Biz həmçinin 2024-cü ildə ətraf mühitlə bağlı təşəbbüslərimizi daha da sürətləndirdik. AZAL, Carbon Click ilə əməkdaşlıq edərək sərnişinlərə təmiz enerji və ekosistemin bərpası layihələrini dəstəkləməyə imkan verən könüllü karbon kompensasiyası proqramını istifadəyə verib. Hava Limanlarının ərazisində ətraf mühitin qorunması sahəsində mütəmadi fəaliyyətlərlə məşğul oluruq, belə ki, qeyd olunan ərazilərdə 90,000-ə yaxın ağacları mühafizə edirik. Eyni zamanda, Abşeron yarımadasında bitki örtüyünün sahəsini genişləndirmək üçün yaşıllıq fəaliyyətlərini dəstəkləyirik, həmçinin əməliyyatlarımızın bütün iş sahələri üzrə enerji qənaət edən və İHK sistemlərini tətbiq edirik.

Bu istiqamətlərdə olan fəaliyyətlərimiz dairəvi iqtisadiyyat və biomüxtəlifliyin qorunmasına olan dəstəyimizi özündə əks etdirir. AZAL-da dayanıqlılıq biznesimizin əsas tərkib hissəsidir. Biz dayanıqlı infrastruktur, ağıllı hava uçuşları və hava limanı həlləri, yaşıl maliyyə və emissiyaların şəffaflığı kimi əsas sütunlar ətrafında strukturlaşdırılmış müfəssəl Xalis Sıfır/Sıfıra Yaxın (Net/Near Zero) Emissiya Planı və ESG Strategiyasını hazırlayırıq. Bu hesabatda bizim dayanıqlı inkişaf sahəsində biznesin təsirinin qiymətləndirilməsinin elmi əsaslı hədəfləri və beynəlxalq iqlim çərçivələri ilə uyğunluğumuzu əhatə edən enerji emissiyalarının idarə olunmasında 1-ci və 2-ci Əhatə Dairələrinin analiz olunması ilə bütün emissiyaların qiymətləndirilməsi də öz əksini tapmışdır. AZAL həmçinin CORSIA, RefuelEU Aviation-nın tələblərinə cavab olaraq texniki-iqtisadi araşdırmalar aparır, infrastrukturumuzu və tənzimləyici bazamızı uyğunlaşdırmaq üçün Dayanıqlı Aviasiya Yanacağının (SAF) əməliyyatlara inteqrasiya etmək imkanlarını inkişaf etdirir.

Paralel olaraq, iqlimə uyğun ağıllı infrastruktur və təyyarə donanmasına investisiyalar üçün dayanıqlı inkişafla əlaqəli istiqrazlar və dayanıqlı maliyyə alətləri də daxil olmaqla yaşıl maliyyəni səfərbər etmək üçün beynəlxalq maliyyə institutları ilə əməkdaşlıq edir.

AZAL-ın xidmət mükəmməlliyinə, təhlükəsizliyə və dayanıqlı inkişafa sadiqliyinin təcəssümü olaraq şirkətimiz son iki il ərzində Skytrax World Airline Awards tərəfindən “Mərkəzi Asiyanın və MDB-nin ən yaxşı regional aviaşirkəti” seçilib.

Gələcəyə nəzər saldıqda, AZAL regionun aviasiya sahəsində enerji keçidinə liderlik etməkdə qətiyyətli olaraq çalışır. Qlobal ESG standartları ilə inteqrasiyamızı dərinləşdirərək və dayanıqlılıq sahəsində müsbət təsirimizi gücləndirən tərəfdaşlıqlar quraraq, biz rəqəmsal innovasiyalara, dayanıqlı infrastruktura və əməliyyat səmərəliliyinin artırılmasına investisiya etməyə davam edəcəyik.

Bu uğurlar işçilərimizin fədakarlığı, sərnişinlərimizin etimadı və tərəfdaşlarımızın bizimlə yaxın əməkdaşlığı sayəsində mümkün olub. Birlikdə aviasiya üçün daha əlaqəli, dayanıqlı və ətraf mühitə həssas yanaşan gələcəyi formalaşdırmağa davam edəcəyik.

Samir Rzayev,
“Azərbaycan Hava Yolları” QSC-nin prezidenti



ŞİRKƏT HAQQINDA

ŞİRKƏTƏ BAXIŞ

Əsası 1992-ci ildə qoyulan “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyəti (AZAL) Azərbaycan Respublikasının bayrağının daşıyıcısıdır. Baş qərargahı Bakıda, Heydər Əliyev Beynəlxalq Aeroportunda (GYD) yerləşir. Əsas fəaliyyət istiqamətimiz Asiya, Avropa və Yaxın Şərqi birləşdirən sərnişin daşımalarıdır.

Bu il ərzində AZAL dinamik inkişafını davam etdirib və Azərbaycanın qlobal bağlantılar və iqtisadi inteqrasiyaya dair strateji baxışını dəstəkləmək üçün ticarət, turizm və mədəni mübadiləni asanlaşdırmaqla regionun nəqliyyat infrastrukturunun mərkəzinə çevrilib.Bu missiyaya uyğun olaraq, AZAL il ərzində bir sıra istiqamətlər üzrə diqqətçəkən nailiyyətlər əldə edib. Aviadaşıyıcı 34,000-dən çox uçuş göstəricisi və əhatə dairəsinin 63 təyinat nöqtəsinədək artırmaqla sərnişin sayında da nəzərəçarpacaq artım əldə edib. Maliyyə baxımından, gəlirlərimizdə və aktivlərimizdə, eləcə də kapital qoyuluşlarımızda əhəmiyyətli artım qeydə alınıb ki, bu da öz növbəsində şirkətin davamlı inkişafa və müasirləşməya sadiqliyini əks etdirir. Bu aşağıda göstərilən rəqəmlər regionda AZAL-ın mobililik və iqtisadi tərəqqisinin əsas hərəkətverici qüvvəsi rolunu göstərir *(Şəkil 1)*.

Şəkil 1. Göstəricilərin icmalı


GÖSTƏRİCİ		
+1.20	milyard AZN	ÜMUMİ GƏLİRLƏR
+1.03	milyard AZN	ÜMUMİ KAPİTAL İNVESTİSİYASI
+1.62	milyard AZN	ÜMUMİ AKTİVLƏR
+1.2	milyard AZN	PAYLANMIŞ İQTİSADİ DƏYƏR

MƏLUMAT		
+34	min uçuş	ÜMUMİ UÇUŞ SAYI
63	istiqamət	ÜMUMİ İSTİQAMƏT SAYI
28	təyyarə	ÜMUMİ TƏYYARƏ SAYI
4.04	milyon sərnişin	ÜMUMİ SƏRNİŞİN SAYI

ŞİRKƏTƏ BAXIŞ

Hazırki hesabat dövründə AZAL-da 1400-dən çox mütəxəssis çalışıb ki, bu da Aviaşirkətin inkişafına mütənasib şəkildə işçi qüvvəmizin dayanıqlı artımının bariz nümunəsidir. Bundan əlavə, il ərzində 306 yeni əməkdaşın işə qəbulu ilə biz insan kapitalına sərmayə qoymağa davam etdik, əməliyyatlarımızın bütün sahələrində innovasiya, təhlükəsizlik və xidmət mükəmməlliyinə təkan verə bilən istedadları cəlb etməyə və saxlamağa müvəffəq olduq *(Şəkil 2)*.

Şəkil 2. Əmək qüvvəsinə dair icmal



851
Kişi əməkdaşların ümumi sayı

554
Qadın əməkdaşların ümumi sayı

2024-CÜ İLİN ƏSAS NAİLİYYƏTLƏRİ VƏ MÜKAFATLARI

Mərkəzi Asiya və MDB-də Ən Yaxşı Regional Aviaşirkət **- Skytrax World Airline Awards 2024** mükafatı ilə təltif olunub

BMT-nin Qlobal Sazişinin üzvü - onun prinsiplərinə sadiqdir və BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) təşviqinə töhfə verir

2024-cü ildə **4 milyondan** çox sərnişin daşınıb. 34,000-dən çox uçuş - 63 istiqamət üzrə həyata keçirilib

Gəlir göstəricisi 2023-cü illə müqayisədə **38% artıb**

Bu hesabat dövründə AZAL ciddi irəliləyiş nümayiş etdirib, aviasiya sahəsində mükəmməlliyə sadiqliyini bir daha təsdiq edərək yeni mərhələlərə qədəm qoyub. AZAL Londonda keçirilən nüfuzlu Skytrax World Airline Awards mərasimində Mərkəzi Asiya və MDB ölkələri arasında ən yaxşı regional aviaşirkət mükafatına layiq görülüb.

Bizim yüksək keyfiyyət standartlarına dayanıqlı öhdəliyimizin sübutu olaraq Skytrax-dan aldığımız 4 Ulduzlu Aviaşirkət Reytinqimizi uğurla qoruyub saxladıq. Bu reytinq AZAL-ın təyyarəsinin göyərtəsindəki komfortun keyfiyyətini, rahatlığını, qidalanmanı, bort əyləncəsini, təmizliyi və heyətin peşəkarlığını xüsusilə qeyd edir.

Əməliyyat baxımından 2024-cü il AZAL üçün fəaliyyət əhatəsinin əhəmiyyətli genişlənməsi ili oldu. İl ərzində Aviaşirkət 4 milyondan çox sərnişin daşıyıb və 34,000-dən çox uçuş həyata keçirib. Əməliyyatların nəzərəçarpan nəticələri, qeyd olunan dövr ərzində rekord səviyyədə gəlirlərin əldə edilməsinin əsas səbəbi olmuşdur *(Şəkil 3)*.

Hesabat ili ərzində AZAL üçün ən mühüm tərəfdaşlıqlardan biri BMT-nin Qlobal Sazişinə qoşulmaq idi. Bu addım qlobal miqyasda dayanıqlılıq prinsiplərinə və məsuliyyətli biznes təcrübələrinə sadiqliyimizi nümayiş etdirir. BMT prinsiplərinə riayət etməklə biz təkcə aviasiya sənayesində beynəlxalq mövqeyimizi gücləndirmirik, həm də özümüzü daha geniş ətraf mühit, sosial və korporativ idarəetmə (ESG) məqsədlərinə nail olmaqda fəal tərəfdaş kimi bəyan edirik. Bu strateji tərəfdaşlıq, AZAL-ın adı keçən mühüm prinsipləri uzunmüddətli əməliyyat strategiyasına və korporativ kimliyinə inteqrasiya etmək niyyətini göstərən yanaşmanı ifadə edir.



Şəkil 3. 2024-cü ildə Mükafatlar və Təltiflər

QLOBAL İQLİM DİALOQUNA TÖHFƏ: COP29


Azərbaycanın milli aviasiyaşısı kimi AZAL, 2024-cü ilin noyabrında Bakıda keçirilən BMT-nin İqlim Dəyişiklikləri üzrə 29-cu Konfransında fəal iştirak edib. Tədbir iqlimə bağlı fəaliyyətin inkişafı məqsədilə hökumətlər, biznes dairələri və vətəndaş cəmiyyəti üçün qlobal platforma təqdim edib və AZAL-ın iştirakı onun milli və beynəlxalq səviyyədə dayanıqlılıq məqsədlərinin dəstəklənməsində strateji rolunu əks etdirib. COP29 zamanı AZAL "Airport Climate Action" sessiyasını təşkil edərək müzakirələrdə emissiyaların azaldılması və beynəlxalq ekoloji çərçivələrə uyğunlaşma istiqamətində dayanıqlı fəaliyyətlərini vurğulayıb. Aviaşirkət beynəlxalq marşrut şəbəkəsini genişləndirməyə imkan verən yanacaq səmərəliliyini əhəmiyyətli dərəcədə artırmaqla, həmçinin karbon izini azaldan yeni nəsil təyyarələr üçün Airbus və Boeing ilə əldə edilmiş son razılaşmalarla dəstəklənən donanmanın modernləşdirilməsində son nailiyyətlərini də nümayiş etdirib.

AZAL həmçinin könüllü karbon kompensasiyası proqramı, CORSIA və Avropa Birliyi/Böyük Britaniyanın ETS tələblərinə uyğunluq, əməliyyat səmərəliliyinə və rəqəmsal transformasiyaya sərmayələr kimi təşəbbüslər vasitəsilə dayanıqlı aviasiyaya sadiqliyini bir daha nümayiş etdirib. Bu səylər, ESG prinsiplərinin əsas biznes sahələrinə inteqrasiyasını təmin edən və AZAL-ı müasir, etibarlı və iqlim dəyişiklikləri ilə mübarizədə məsuliyyətli aviaşirkət kimi təqdim edən genişmiqyaslı strategiyanın mühüm hissəsidir. COP29-da iştirak, AZAL-ın regionda yaşıl aviasiya keçidində lider mövqeyini daha da gücləndirərək, dayanıqlı inkişaf yolunda mühüm mərhələni ifadə edib. Tədbir, dünyanın müxtəlif bölgələrindən olan tərəfdaşlarla konstruktiv əməkdaşlıq əlaqələri qurmaq, iqlim maliyyələşdirilməsi və innovasiyalar sahəsində yeni imkanlar açmaq, həmçinin Azərbaycanın qlobal müstəvidə dayanıqlı nəqliyyat sistemində regional mərkəzə çevrilməsi istiqamətində planlarını dəstəkləməkdə AZAL-ın aparıcı rolunun bir daha nümayişi edib. COP29 zamanı kommunikasiya layihələri çərçivəsində AZAL-ın baş icraçı direktoru Samir Rzayev "Sustainability Now: Sustainable Aviation and Tourism" adlı rəsmi COP29 podkastında çıxış edib. Bu xüsusi proqramda Rzayev, AZAL-ın yaşıl aviasiyanın inkişafına baxışını, şirkətin dayanıqlılıq üzrə yol xəritəsini və regional hava nəqliyyatının gələcəyinin formalaşmasında rəqəmsal innovasiyaların, enerji keçidinin və iqlim tərəfdaşlığının mühüm rolunu müzakirə edib.

🎧 Yayımı buradan dinləyə bilərsiniz:
YouTube-da AZAL Podcast

Bu təşəbbüslər AZAL-ın fəaliyyəti çərçivəsində ESG prinsiplərinin inteqrasiyasına yönəlmiş daha geniş ESG strategiyasını əks etdirir. COP29 beynəlxalq tərəfdaşlarla əlaqə yaratmaq, iqlim maliyyəsi və innovasiyalar sahəsində yeni tərəfdaşlıq imkanlarını araşdırmaq və aviasiya sektorunun dekarbonizasiyasında regional əməkdaşlığı təşviq etmək üçün əsas platforma rolunu oynayıb.










HESABAT HAQQINDA

ƏHATƏ DAİRƏSİ VƏ HÜDUDLARI

"Azərbaycan Hava Yolları" QSC (Bundan sonra "Aviaşirkət" və ya "AZAL" adlandırılacaq) böyük məmnuniyyətlə özünün 1 yanvar 2024-cü ildən 31 dekabr 2024-cü il tarixinədək fəaliyyətinə dair geniş icmalı əhatə edən Dayanıqlılıq Hesabatını təqdim edir. Aviaşirkət "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) nəzdində fəaliyyət göstərən və fəaliyyətinə dair geniş korporativ çərçivəyə və strateji baxışa uyğunlaşdırılan biznes bölməsidir.

Bundan sonra "Hesabat" adlandırılacaq bu Dayanıqlılıq Hesabatı AZAL-ın şəffaflıq və dayanıqlı inkişaf üzrə davamlı öhdəliklərini əks etdirir. O, ətraf mühit, sosial və korporativ idarəetmə sahəsi də daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, müxtəlif istiqamətlər üzrə əsas nailiyyətləri təsbit edir. Əldə olunan nailiyyətləri və inkişaf mərhələlərini kontekstə uyğun təqdim etmək məqsədilə əvvəlki illərlə müvafiq müqayisələr də təqdim olunub. Hesabatın əhatə dairəsi müstəqil biznes vahidi kimi AZAL ilə məhdudlaşır. O, Aviaşirkətin birbaşa səlahiyyətlərinə aid olan bütün fəaliyyətləri əhatə edir. Hesabatın hazırlanmasında AZAL dayanıqlılıqla əlaqədar ciddi təsirlərin, risklərin və imkanların ətraflı nəzərdən keçirilməsini təmin etmək üçün əhəmiyyətlilik və tamlıq prinsiplərinə riayət edib.



HESABAT STANDARTLARI



AZAL dayanıqlılıq üzrə məlumatların açıqlanmasında şəffaflığını, ardıcıllığını və əhatəliliyini artırmaq məqsədilə Qlobal Hesabat Təşəbbüsü (GRI) Standartlarına əsaslanır. Paralel olaraq, biz aviasiya sektoruna aid əsas ESG mövzularına diqqət yetirərək, Dayanıqlılıq üzrə Mühasibat Uçotu Standartları Şurasının (SASB) çərçivəsindən istifadə edirik. Bu iki istiqamətli uyğunluq yanaşması tənzimləyicilər, investorlar, müştərilər və daha geniş ictimaiyyət də daxil olmaqla, müxtəlif maraqlı tərəflərin gözləntilərinə cavab vermək üçün hesabatların hazırlanmasına töhfə verir. Eyni zamanda, maliyyə göstəriciləri ilə maraqlananlara məlumatların müqayisəliliyi və qərar qəbuluna dair prosedurlar da təqdim olunur. Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının (IATA) üzvü olaraq, AZAL ətraf mühitə təsirin azaldılması və əməliyyat səmərəliliyinin artırılması üzrə qlobal səyləri dəstəkləyən sənayedə aparıcı dayanıqlılıq təcrübələrinə sadiq qalır. IATA-nın 2050-ci ilə qədər Fly Net Zero (Uçuşlar üzrə Xalis Sıfır) öhdəliyinə uyğun olaraq, əməliyyatlarımızda xalis sıfır karbon emissiyasına nail olmağa olduqca maraqlıyıq. Məhz bu səbəbdən, hazırkı hesabatda da bu məqsədə doğru irəliləyişimizə dair məlumatları təqdim edirik. Dayanıqlılıq Hesabatı ətrafmühit, sosial və iqtisadi meyarlar üzrə uzunmüddətli fəaliyyətlərimizi istiqamətləndirmək üçün çərçivə rolunu oynayan Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinə (BMT DİM) uyğunlaşdırılıb. Əməliyyatlarımızın daha geniş qlobal prioritetləri necə cavab verdiyini nümayiş etdirmək üçün biz əsas təşəbbüslərimizi müvafiq DİM-lərlə fəal şəkildə əlaqələndiririk.

MARAQLI TƏRƏFLƏRLƏ QARŞILIQLI ƏLAQƏ

Maraqlı tərəflərlə qarşılıqlı əlaqə AZAL əməliyyatlarının inkişafı üçün mühüm komponentdir. Məqsədlərimizi onların gözləntilərinə uyğunlaşdırmaq və toplanan rəylər əsasında fəaliyyətimizi təkmilləşdirmək üçün əsas maraqlı tərəf qrupları ilə müntəzəm əlaqə saxlayırıq.

Maraqlı tərəflər siyahısına dövlət qurumları, tənzimləyici orqanlar, əməkdaşlar, müştərilər, biznes tərəfdaşları, investorlar, yerli icmalar və qeyri-hökumət təşkilatları (QHT) daxildir. Yanaşmamızın əsasını qarşılıqlı ünsiyyətin davamlı olması təşkil edir. Əsas maraq və diqqət sahələrini dəqiqləşdirmək və prioritetləşdirmək üçün sorğular, müsahibələr və seminarlar vasitəsilə maraqlı tərəflərin rəyini fəal şəkildə öyrənirik. Bu, bizə prioritetlərimizi birbaşa formalaşdıran dəyərli rəylər təqdim edir və bu Hesabatın həm maraqlı tərəflərimiz, həm də biznesimiz üçün ən aktual məsələlərə diqqət yetirməsini təmin edir. Açıq müzakirələr və qarşılıqlı anlaşma üzərində qurulan əlaqələr toplanan rəylərin planlaşdırma və qərar qəbulu proseslərimizə inteqrasiya olunmasına imkan açır. Hesabat bütün maraqlı tərəflərə əldə etdiyimiz nailiyyətləri, üzləşdiyimiz çağırışları və iddialı olduğumuz hədəfləri təqdim etmək üçün mühüm platforma rolunu oynayır *(Cədvəl 1)*.



MARAQLI TƏRƏF QRUPLARI

Maraqlı tərəflərin fikirləri təkcə fəaliyyətimizə dəstək olmur, həm də dayanıqlı təkmilləşdirmə üçün yol göstərir. Şirkətimiz inkişaf etdikcə, bu rəylər bizim üçün ortaq dəyər yaratmağa və uzunmüddətli təsirə doğru istiqamətləndirməkdə vacib olaraq qalır.

- DÖVLƏT QURUMLARI
- TƏNZİMLƏYİCİ ORQANLAR
- ƏMƏKDAŞLAR
- MÜŞTƏRİLƏR
- BİZNES TƏRƏFDAŞLARI
- İNVESTORLAR
- YERLİ İCMALAR
- QEYRİ-HÖKUMƏT TƏŞİLATLARI (QHT)

MARAQLI TƏRƏFLƏR QRUPU	ƏSAS MARAQ VƏ DİQQƏT SAHƏLƏRİ	QARŞILIQLI ƏLAQƏ METODU	ÜNSİYYƏT TEZLİYİ
TƏNZİMLƏYİCİ VƏ HÖKUMƏT ORQANLARI	Yerli və beynəlxalq aviasiya qanunlarına, təhlükəsizlik qaydalarına, ekoloji tələblərə və dayanıqlı aviasiya məqsədlərinə uyğunluq.	• Dövri görüşlər və vaxtında uyğunluq. • Tənzimləyici orqanlara hesabat vermək; • Siyasətin işlənib hazırlanması üzrə əməkdaşlıq; • Aviasiya forumlarında və sənaye məsləhətləşmələrində iştirak.	**Müvafiq vaxtlarda**
SƏRNİŞİNLƏR VƏ MÜŞTƏRİLƏR	Uçuş təhlükəsizliyi, xidmət keyfiyyəti, müştəri təcrübəsi və əməliyyatlarda şəffaflıq.	• Müştəri rəyi sorğuları və şikayətlərin həlli; • Sosial media ilə əlaqə; • ESG göstəriciləri və təşəbbüsləri haqqında dayanıqlılıq hesabatları.	Gündəlik
ƏMƏKDAŞLAR VƏ İŞÇİ QÜVVƏSİ	Əməyin təhlükəsizliyi, karyera inkişafı, ədalətli əmək haqqı, müxtəliflik və inklüzivlik, iş-həyat balansı və rifah.	• İşçilərin cəlb edilməsi proqramları; • Təlim və peşəkar inkişaf; • Daxili xəbər bülletenləri və əks əlaqə mexanizmləri; • Toplantılar və rəhbərliklər sual-cavab sessiyaları.	Gündəlik
BİZNES VƏ SƏNAYE TƏRƏFDAŞLARI	Təchizat zəncirinin dayanıqlılığı, əməliyyat səmərəliliyi, investisiya imkanları və əməkdaşlıq layihələri.	• Biznes dəyirmi masaları və sənaye şəbəkələri; • Dayanıqlılıq üzrə birgə təşəbbüslər; • Fəaliyyət qiymətləndirmələri və təchizatçı auditləri.	**İllik** əsasda
İNVESTORLAR VƏ MALİYYƏ TƏŞKİLATLARI	Risklərin idarə edilməsi, maliyyə sabitliyi, dayanıqlılıqla əlaqəli investisiyalar və idarəetmə şəffaflığı.	• İllik hesabatlar və investorlar üçün brifinqlər; • ESG açıqlamaları. • Xüsusi investorlarla əlaqələr qrupu.	**Yarımillik** əsasda
YERLİ İCMALAR VƏ QHT-LƏR	Ətraf mühitə təsir, icma inkişafı, korporativ sosial məsuliyyət (KSM) və məşğulluq imkanları.	• İcma-yönümlü proqramlar; • Ətraf mühitə təsir barədə açıqlamalar; • KSM təşəbbüsləri, sponsorluqlar və tərəfdaşlıqlar; • İctimai forumlar və maraqlı tərəflərlə dialoqlar.	**Rüblük** əsasda

Cədvəl 1. Maraqlı tərəflərlə qarşılıqlı əlaqənin qurulması



02 PRİORİTETLƏRİ DAVAMLI İNKİŞAFA ÇEVİRMƏK

ƏSAS MÖVZULARIN MÜƏYYƏN EDİLMƏSİ

Aviasiya kimi mürəkkəb və genişmiqyaslı bir sənayedə, məsuliyyətli biznes təcrübələrinə rəhbərlik etmək üçün dayanıqlılıq üzrə əsas mövzularının müəyyən edilməsi vacibdir.

Bu, əməliyyatlarımıza ən çox təsir edən və maraqlı tərəflərimiz üçün ən yüksək əhəmiyyət kəsb edən məsələlərə diqqət yetirməyimizə imkan verir.

Bu məqsədlə, müvafiq müqayisələrdən istifadə etməklə fəaliyyətimizin hərtərəfli təhlilini apardıq. Həmçinin həm idarəetmə, həm də əməliyyat qruplarının nümayəndələri də daxil olmaqla əsas maraqlı tərəfləri cəlb etdik. Müqayisəli təhlil və maraqlı tərəflərin töhfəsi ətraf mühit, sosial, idarəetmə və iqtisadi sahədə əsas mövzuları müəyyən etməyimizə kömək edib. Biznesin əhəmiyyətliliyinin qiymətləndirilməsi prosesi, daxili komandalar və mövzu üzrə ekspertlərin iştirakı ilə maraqlı tərəflərin əhatəli siyahısının (xəritəsinin) tərtibindən başlayıb. Bu mərhələ, qiymətləndirmənin əhatə dairəsini müəyyənləşdirməyə və əməliyyatlarımız üçün ən uyğun maraqlı tərəf qruplarını seçməyə imkan verib. Sonrakı mərhələdə, əsas maraqlı tərəflərlə məqsədyönlü müsahibələr aparılaraq, onların ən vacib hesab etdikləri biznes məsələləri barədə məlumat toplanıb.

Bu fikirlər, potensial əhəmiyyətlilik mövzularının ilkin siyahısının hazırlanması üçün əsas kimi istifadə edilib *(Şəkil 4)*. Hər il aparılan əhatəli əhəmiyyətlilik qiymətləndirilməsindən sonra, hər bir mövzu biznes strategiyamız və maraqlı tərəflərin prioritetləri baxımından qiymətləndirilir və önəmlilik dərəcəsinə görə sıralanır *(Şəkil 5)*. Nəticədə formalaşan əsas məsələlərin yekun siyahısı, AZAL-ın strateji məqsədləri və məsuliyyətli biznes təcrübələrinə sadiqliyi ilə uyğunluğu təmin etmək məqsədilə yüksək rəhbərlik tərəfindən nəzərdən keçirilib və təsdiqlənib *(Cədvəl 2)*.



ƏSAS MÖVZULARIN MÜƏYYƏN EDİLMƏSİ

01. ADDIM 1. MARAQLI TƏRƏFLƏRİN XƏRİTƏLƏNDİRİLMƏSİ

Qiymətləndirməni planlaşdırmaq, əsas tərəfdaşlar qruplarını müəyyən etmək və müvafiq biznes istiqamətlərin əhatə dairəsini müəyyən etmək üçün daxili komandalar və mövzular üzrə ekspertlərlə əməkdaşlıq qurulub.



02. ADDIM 2. MƏSƏLƏLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

Ən əhəmiyyətli hesab etdikləri biznes məsələlərini müəyyən etmək və anlamaq üçün əsas maraqlı tərəflərlə müsahibələr aparılıb. Bu məlumat bizə potensial əhəmiyyətli mövzuların siyahısını müəyyən etməyə kömək etdi.




03. ADDIM 3. TƏHLİL VƏ PRİORİTETLƏŞDİRMƏ

Hər bir mövzunun biznes üçün nisbi əhəmiyyətini qiymətləndirmək üçün maraqlı tərəflərin cavabları təhlil edilib. Mühüm məsələlərin yekun toplusu nəzərdən keçirilib və təsdiq edilib.




SON ADDIM

MÜHÜM MÖVZULAR NƏZƏRDƏN KEÇİRİLİB



Şəkil 4. Biznesin əhəmiyyətliliyinin qiymətləndirilməsi prosesinin icmalı

ƏHƏMİYYƏTLİLİK DİAQRAMI



- 1. Dairəvi İqtisadiyyat
- 2. Suyun idarə edilməsi
- 3. Tullantıların idarə olunması
- 4. Enerji istehlakı və Səmərəlilik
- 5. İstixana Qazı Emissiyalarının İdarə Edilməsi
- 6. Səs-küy Çirklənməsinin və Hava Keyfiyyətinin İdarə Edilməsi
- 7. İcma İnvestisiyaları
- 8. Potensialın artırılması
- 9. İnsan Haqqları, Müxtəliflik, İnklüzivlik və Bərabərlik
- 11. Keyfiyyətin İdarə edilməsi və Müştəri Məmnuniyyəti
- 12. Uçuş Təhlükəsizliyi
- 13. Əməyin Mühafizəsi və Təhlükəsizliyi
- 14. Rəqəmsallaşma və Kibertəhlükəsizlik
- 15. Normativ qaydalara uyğunluq
- 16. Risk və İdarəetmə
- 17. Təchizat Zəncirinin İdarə Edilməsi
- 18. Maliyyə Dayanıqlığı
- 19. Donanmanın modernləşdirilməsi və inkişafı
- 20. Brendin İdarə edilməsi və Reputasiya

Şəkil 5. Əhəmiyyətlilik diaqramı

MÖVZULARIN ƏHƏMİYYƏTİNİN DƏRK EDİLMƏSİ

Cədvəl 2. Mövzuların əhəmiyyətinin dərk edilməsi

DAİRƏVİ İQTISADİYYAT


Aviaşirkətlər əhəmiyyətli sayda tullantılara səbəb olur. Dairəvi iqtisadiyyata keçid tullantıları azalda, resurslara qənaət edə və xərclərin səmərəliliyini artıra bilər. Aviaşirkətlər nəqliyyat sektorunda dayanıqlı təcrübələrin təşviqində aparıcı rol oynaya bilər.



TULLANTILARIN İDARƏ OLUNMASI

Aviaşirkətlər tərəfindən ətraf mühitə təsir edən əhəmiyyətli miqdarda tullantı əmələ gətirilir. Aviaşirkətlər təhlükəli tullantıların miqdarını və miqdarını minimuma endirən Tullantıların idarə olunması sistemini tətbiq etməlidirlər.





İSTİXANA QAZI EMİSSİYALARI

Aviasiya sektoru qlobal səviyyədə iqlim dəyişmələri ilə nəticələnən İQƏ emissiyaları üzrə əsas mənbələrdən biridir. Beynəlxalq müqavilələr və potensial karbon vergi mexanizmləri aviaşirkətlərin əməliyyatlarına və xərclərinə artan təsir göstərəcək.

SU EHTİYATLARININ İDARƏ EDİLMƏSİ

Digər məsələlər qədər prioritet olmasa da, aviaşirkətlər müxtəlif əməliyyatlar üçün sudan istifadə edirlər. Məsuliyyətli su istehlakı xüsusilə su qıtlığı ilə üzləşən bölgələrdə vacibdir.

ENERJİ İSTEHLAKI VƏ SƏMƏRƏLİLİK

Enerji səmərəliliyi hava yolları üçün ətraf mühitə təsiri minimuma endirmək, maliyyə göstəricilərini yaxşılaşdırmaq və qlobal enerji keçidini dəstəkləmək üçün çox vacibdir. Bura müasir, enerjiyə qənaət edən təyyarələrə sərmayə və uçuş əməliyyatlarının optimallaşdırılması daxildir.

SƏS-KÜY ÇİRKLƏNMƏSİ VƏ HAVA KEYFİYYƏTİNİN İDARƏ EDİLMƏSİ

Təyyarənin səs-küyü və havanın çirklənməsi hava limanları ətrafındakı icmalara təsir göstərir. Bu təsirlərin idarə edilməsi cəmiyyətin sağlamlığı və həyat keyfiyyəti və Aviaşirkətin, xüsusən də əhalinin sıx məskunlaşdığı ərazilərdə fəaliyyət göstərmək üçün lisenziyanı itirməmək üçün çox vacibdir.

MÖVZULARIN ƏHƏMİYYƏTİNİN DƏRK EDİLMƏSİ

Cədvəl 2. Mövzuların əhəmiyyətinin dərk edilməsi

ƏMƏYİN MÜHAFİZƏSİ VƏ TƏHLÜKƏSİZLİYİ

İşçilərin rifahı əməliyyat səmərəliliyi və etik səbəblərə görə vacibdir. Aviaşirkətlər xəsarətlərin və xəstəliklərin qarşısını almaq üçün əməyin mühafizəsinə xüsusi diqqət yetirməlidirlər.

İSTEDADLARIN İNKİŞAFI

Aviasiya sektorunun xüsusi tələblərini nəzərə alaraq, işçilərin təlimi və inkişafı əməliyyat səmərəliliyi, təhlükəsizliyi və mükəmməl xidmət göstərilməsi üçün vacibdir.

İCMA İNVESTİSİYALARI

Aviaşirkətlər hava limanları ətrafındakı icmalara təsir göstərir. Bu icmalara sərmayə qoymaq müsbət münasibət yarada və şirkətin fəaliyyət göstərməsini sosial amillərlə dəstəkləyə bilər.

UÇUŞ TƏHLÜKƏSİZLİYİ

Aviasiya sektoru təhlükəsizlik üzərində qurulur. Hər bir səmərəsiz uçuş faciəyə səbəb ola bilər. Ən yüksək təhlükəsizlik standartlarının qorunması bütün aviaşirkətlər üçün vacibdir.

RƏQƏMSALLAŞMA VƏ KİBER-TƏHLÜKƏSİZLİK

Rəqəmsal sistemlərdən sıx asılılıq və sərnişin və əməliyyat məlumatlarının ciddi mahiyyətini nəzərə alaraq, aviaşirkətlər ciddi kibertəhlükəsizlik həssaslığı ilə üzləşirlər. Güclü kibertəhlükəsizlik protokolları sərnişin məlumatlarını qorumaq, əməliyyat sistemlərinin bütövlüyünü təmin etmək və təyyarə təhlükəsizliyini təmin etmək üçün vacibdir.

KEYFİYYƏTİN İDARƏ EDİLMƏSİ VƏ MÜŞTƏRİ MƏMNUNİYYƏTİ

Aviaşirkətlər üçün müştəri məmnuniyyəti və yüksək xidmət keyfiyyətinə üstünlük vermək rəqabət və sərnişinlərin cəlb edilməsi üçün vacibdir.

İŞÇİLƏRİN İŞƏ QƏBULU VƏ SAXLANILMASI

İxtisaslı kadrların cəlb edilməsi və saxlanılması əməliyyatların düzgün aparılması və xidmət keyfiyyəti üçün çox vacibdir. Aviaşirkətlər ən yaxşı istedadları cəlb etmək üçün rəqabətli əmək münasibətləri və iş şəraiti təklif etməlidirlər.

İNSAN HAQLARI, MÜXTƏLİFLİK, İNKLÜZİVLİK VƏ BƏRABƏRLİK


Ədalətli rəftar, bərabər imkanların və müxtəlif işçi qüvvəsinin təmin edilməsi etik səbəblərdən, işçilərin rifahı və müştərilərin cəlb edilməsi baxımından getdikcə daha çox əhəmiyyət kəsb edir.

MÖVZULARIN ƏHƏMİYYƏTİNİN DƏRK EDİLMƏSİ

Cədvəl 2. Mövzuların əhəmiyyətinin dərk edilməsi

NORMATİV TƏLƏBLƏRƏ UYĞUNLUQ

Hava nəqliyyatında təhlükəsizliyin fövqəladə əhəmiyyətini nəzərə alaraq, aviasiya sektoru həm beynəlxalq aviasiya qurumları, həm də milli qanunvericilik tərəfindən müəyyən olunan geniş miqyasda tənzimləyici qaydalara əsasən fəaliyyət göstərir.




TƏCHİZAT ZƏNCİRİNİN İDARƏ EDİLMƏSİ

Aviaşirkətlər kompleks təchizat zəncirlərinə əsaslanır. Effektiv və dayanıqlı təchizat zəncirinin idarə edilməsi xərclərə nəzarət, əməliyyat etibarlılığı və ətraf mühitə təsirin minimuma endirilməsi üçün vacibdir.









RİSK VƏ BÖHRANLARIN İDARƏ EDİLMƏSİ


Effektiv risk və böhran idarə edilməsi biznesin dayanıqlılığı və əməliyyat sabitliyinin qorunması üçün, xüsusən də hava səyahətləri kimi qloballaşan sənaye üçün vacibdir.

MÖVZULARIN ƏHƏMİYYƏTİNİN DƏRK EDİLMƏSİ

Cədvəl 2. Mövzuların əhəmiyyətinin dərk edilməsi

MALİYYƏ DAYANIQLILIĞI

İqtisadi tendensiyalar və mövsümi səyahətlərdən asılı olan aviasiya sektorunun dövri təbiəti maliyyə dayanıqlığının əhəmiyyətini vurğulayır. Bu amil tələşılar zamanı uzunmüddətli fəaliyyəti təmin etməyə və sektorun gələcək həyat qabiliyyətinə imkan açan dayanıqlı təcrübələrə mühüm investisiyaların qoyulması üçün həyati əhəmiyyət kəsb edir.






BRENDİN İDARƏ EDİLMƏSİ VƏ REPUTASİYA

Yüksək rəqabətli aviasiya sektorunda brendin reputasiyası əsas fərq yaradan amildir. Buna görə də güclü və etibarlı brend yaratmaq və saxlamaq, dayanıqlılığa və bazar payının artımı üçün vacibdir.





DONANMANIN MODERNLƏŞDİRİLMƏSİ VƏ İNKİŞAFI

Təyyarələrin əsas kapital qoyuluşları olduğunu nəzərə alsaq, müasir, yanacaq istehlakı sərfəli olan donanmaya strateji sərmayə yatırmaq çox vacibdir. Bu, daha aşağı xərclər hesabına rəqabət qabiliyyətini artırır, ətraf mühiti qorumaq üçün emissiyaları azaldır və müşəri məmnuniyyətini daha çox artıraraq sərnişin təcrübəsini yaxşılaşdırır.

BMT-NİN DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ İLƏ UYĞUNLAŞMA

Dayanıqlılıq ətraf mühitə diqqət, məsuliyyətli idarəetmə və sosial inklüzivlik sahəsində səylərimizi istiqamətləndirən strateji qərarlarımızın əsas sütunudur. Dayanıqlılıq siyasətimizdə öz əksini tapan bu yanaşma, yanacağa qənaət edən təyyarələrlə donanmanın modernləşdirilməsi, bütün fəaliyyətlərdə yanacaq və enerji səmərəliliyinin artırılması və CarbonClick ilə tərəfdaşlığımız vasitəsilə sərnişinlərin karbon kompensasiyasında iştirakının tətbiqi kimi təşəbbüslər vasitəsilə ətraf mühitə təsirlərin azaldılmasını vurğulayır.

Bu tərəfdaşlığın məqsədi qlobal iqlim tədbirlərinə töhfə verən və aviasiyanın ətraf mühitə təsirini azaltmağa kömək edən məsuliyyətli istehlakçı seçimlərini dəstəkləməklə daha dayanıqlı hava səyahətini təşviq etməkdir. 2024-cü ildə ətraf mühitə, təhsilə və sosial rifaha müsbət təsir göstərən 25 Korporativ Sosial Məsuliyyət (KSM) layihəsini uğurla həyata keçirdik. Dayanıqlılıq strategiyasında qeyd olunan KSM prinsiplərimizi rəhbər tutaraq, 600-dən çox ağacın əkilməsi, qanvermə aksiyalarının təşkili, şəhid uşaqları üçün yay proqramları və ekskursiyaların təşkili, autizm spektrli fərdlərə dəstək və gənclər üçün maarifləndirici turların təşkili də daxil olmaqla, bu layihələr xüsusilə DİM 3 (Sağlamlıq və rifah), DİM 4 (Keyfiyyətli təhsil), DİM 10 (Bərabərsizliyin azaldılması), DİM 13 (İqlim fəaliyyəti) və DİM 15 (Quruda həyat) kimi məqsədlər üzrə öhdəliklərimizi əks etdirir. Qeyd olunan təşəbbüsləri icma ehtiyaclarına uyğunlaşdırmaq üçün QHT-lər və sosial qurumlarla əməkdaşlıqda həyata keçirdik. Bundan əlavə, Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişi (UNGC) və Green Aviation Insights (GAIN) kimi qlobal platformalarda fəal iştirakımız beynəlxalq dayanıqlılıq standartlarına və ən yaxşı təcrübələrə uyğunlaşmaya olan sadiqliyimizi də göstərir. Ətraf mühitə diqqət, sosial məsuliyyət və sağlam korporativ idarəetməni əhatə edən dayanıqlılıq siyasətimizi əsas biznes əməliyyatlarımıza inteqrasiya etməklə, biz təkcə əməliyyat səmərəliliyini artırmağa deyil, həm də karbon emissiyalarının azaldılması, işçilərin rifahının təşviqi və normativ standartların təmin edilməsi kimi daha geniş ictimai və ekoloji məqsədlərə mənalı töhfə verməyi hədəfləyirik.

Qlobal ambisiyalarla sıx uyğunlaşan dayanıqlılıq baxışımız Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədləri (DİM) tərəfindən təmin olunan çərçivəyə tam şəkildə əsaslanır. Bu məqsədlər AZAL-ın təşəbbüslərinə istiqamət verən və davamlı təsirə nail olmaq üçün uzunmüddətli hədəflərimizi və hərəkətlərimizi formalaşdıran əhəmiyyətli bir plan rolunu oynayır *(Şəkil 6)*.

United Nations Global Compact

Azərbaycan Hava Yolları qlobal dayanıqlılıq prinsiplərini öz əməliyyatlarına və strateji təşəbbüslərinə inteqrasiya etməklə, 10 Dayanıqlı İnkişaf Məqsədinin həyata keçirilməsinə fəal töhfə verir.

AZERBAIJAN AIRLINES

Azərbaycan Hava Yolları Dayanıqlı İnkişaf Məqsədlərini dəstəkləyir və fəaliyyətini Birləşmiş Millətlər Təşkilatının Qlobal Sazişinin prinsiplərinə uyğunlaşdırır

Şəkil 6. BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə töhfəmiz



Yaxşı Sağlamlıq və Rifah – DİM 3:
Səhiyyə proqramları, iş yerində təhlükəsizlik, psixi sağlamlıq və əməkdaşların rifahı.



Keyfiyyətli Təhsil - DİM 4:
Aviasiya təhsili, təhsil tərəfdaşlığı və karyera inkişafı.



Gender Bərabərliyi - DİM 5:
Gender müxtəlifliyi təşəbbüsləri, “2025-ci ilə qədər 25” proqramı və inklüziv işə qəbul.



Məqsədlər üçün tərəfdaşlıq - DİM 17:
Güclü qlobal tərəfdaşlıqlar (məsələn, UNGC, COP29), dövlət-özəl tərəfdaşlığı və maraqlı tərəflərin cəlb edilməsi.



Layiqli Əmək və İqtisadi İnkişaf - DİM 8:
Məhsuldarlığa, sərnişin artımına və aviasiya sektorunun inkişafına töhfə. İş yerlərinin yaradılması və işçi qüvvəsinin səlahiyyətləndirilməsi.



Sənaye, İnnovasiya və nfrastruktur - DİM 9:
Donanmanın modernləşdirilməsinə, rəqəmsal alətlərə və əməliyyat səmərəliliyinə investisiya.



Sərfəli və Təmiz Enerji - DİM 7:
Enerjiyə qənaət edən təyyarələr, İHK sistemləri və enerjiyə qənaət edən texnologiyalar.




Dayanıqlı Şəhərlər və İcmalar – DİM 11:
Şəhər ərazilərinə yaxın tullantı və səs-küy çirklənməsinin idarə olunması, hava keyfiyyətinin yaxşılaşdırılması.



Məsuliyyətli İstehsal və İstehlak – DİM 12:
Dövri iqtisadiyyat, təkrar emal və məsuliyyətli istehlak təcrübələri.



İqlim Dəyişikliyinə qarşı Mübarizə – DİM 13:
Karbon kompensasiyası proqramları, emissiyaların azaldılması və COP29 tədbirlərində iştirak.



MƏQSƏD 3. YAŞINDAN ASILI OLMAYARAQ HAMININ SAĞLAM YAŞAYIŞ TƏRZİNİ TƏMİN ETMƏK VƏ RİFAH HALINI YAXŞILAŞDIRMAQ

Biznes mövzulu məqsədlər

- Əsas səhiyyə xidmətlərinə çıxışı genişləndirmək.
- Psixi rifahı təşviq etmək və iş yükündən yaranan yorğunluğu azaltmaq.

Gələcək planlar

- Təhlükəsizlik sahəsində təlimləri və sağlamlıq proqramlarını genişləndirmək.

Görülmüş tədbirlər

- ƏMT təlimində iştirak 2024-cü ildə 4% artıb; İşçilərin 11%-i təlim keçib.
- fərdi mühafizə vasitələrinə (FMV) 30,240 AZN və iş şəraitinin yaxşılaşdırılmasına 70,000 AZN xərclənib.
- 1,405 əməkdaş üçün tam tibbi sığorta təmin edilir: siyahıya illik müayinələr, qripə qarşı peyvənd və psixi sağlamlıq dəstəyi daxildir.

Əhatə olunan hədəflər

- 3.8: Maliyyə riskindən qoruma da daxil olmaqla, hamı üçün tibbi sığorta təminatına, əsas keyfiyyətli səhiyyə xidmətlərinə çıxış imkanına və təhlükəsiz, effektiv, keyfiyyətli və əlçatan şəkildə əsas dərman preparatlarına və peyvəndlərə çıxış imkanına nail olmaq.



MƏQSƏD 4. HAMI ÜÇÜN İNKLÜZİV VƏ BƏRABƏR KEYFİYYƏTLİ TƏHSİLİ TƏMİN ETMƏK VƏ ÖMÜR BOYU TƏHSİL ALMAQ İMKANLARINI DƏSTƏKLƏMƏK

Biznes mövzulu məqsədlər

- Texniki, liderlik və peşə bacarıqlarını gücləndirərək, aviasiya sahəsində gələcəyə hazır işçi qüvvəsi inkişaf etdirmək.
- Regionda aparıcı aviasiya təhsil və təlim təminatçısı kimi işəgötürən brendini gücləndirmək.
- Dayanıqlı və standartlara əsaslanan təlim vasitəsilə uzunmüddətli əməliyyat mükəmməlliyi və təhlükəsizliyi təmin etmək.

Gələcək planlar

- Texniki, əməliyyat və liderlik sahələrində genişmiqyaslı daxili təlim proqramlarını davam etdirmək.
- Təyyarələrə aid beynəlxalq təlimlərdə (Boeing və Airbus mərkəzləri) iştirakı artırmaq.
- Texniki özünütəminatı artırmaq üçün daxili texniki təmir təlimlərini genişləndirmək.
- Bütün təlim təşəbbüslərində, xüsusilə texniki və liderlik istiqamətlərində, gender inklüzivliyini təşviq etmək.
- Ətraflı təlim metodologiyalarını və qabaqcıl təcrübələri inteqrasiya etmək üçün beynəlxalq əməkdaşlıqları genişləndirmək.

Görülmüş tədbirlər

- Milli Aviasiya Akademiyası, Hərbi Hava Qüvvələri Məktəbi və Türkiyə və ABŞ universitetləri ilə əməkdaşlıqlar.
- Pilotlar və texniki personal üçün müxtəlif təyyarə növləri üzrə tam uçuş simulyatorlarından istifadə və beynəlxalq təlimlər.
- Şəhid övladları və AZAL əməkdaşları üçün maarifləndirici turlar və düşərgələr.

Əhatə olunan hədəflər

- 4.4: 2030-cu ilədək, məşğulluq, layiqli iş imkanları və sahibkarlıq fəaliyyəti üçün uyğun vərdişlərə, o cümlədən texniki və peşə vərdişlərinə malik olan gənclərin və yaşlıların sayını əhəmiyyətli dərəcədə artırmaq.



MƏQSƏD 5. GENDER BƏRABƏRLİYİNƏ NAİL OLMAQ, BÜTÜN QIZ VƏ QADINLARIN HÜQUQ VƏ İMKANLARINI GENİŞLƏNDİRMƏK

Biznes mövzulu məqsədlər

- Təşkilatın bütün səviyyələrində, o cümlədən işə qəbul, təlim və liderlik sahələrində bərabər imkanları təşviq etmək və gender ayrı-seçkiliyini aradan qaldırmaq.
- Texniki və liderlik vəzifələrində qadınların iştirakını artırmaq.

Gələcək planlar

- Aviasiya sahəsində qadınların inkişafını dəstəkləmək və təşviq etmək məqsədilə “Aviasiya üçün Qadınlar” forumunu təşkil etmək.
- Daha çoxlu sayda qadının liderlik və idarəetmə vəzifələrinə hazırlanması məqsədilə inklüziv varislik proqramlarını gücləndirmək.
- Məlumatların izlənməsi və daxili qiymətləndirmələr vasitəsilə işə qəbul, təlim və vəzifə artımında gender təmsilçiliyi boşluqlarını aşkar etmək və aradan qaldırmaq.
- Qadınların texniki təlim proqramlarında və peşəkar inkişaf istiqamətində iştirakını dəstəkləmək.

Görülmüş tədbirlər

- IATA-nın “25by2025” gender müxtəlifliyi təşəbbüsünün imzalanması.
- Qadın işçilərin sayı 431 nəfərdən (2022) 554 nəfərə (2024) artırılıb.
- Bərabər imkanlar əsasında işə qəbul təcrübələri və ayrı-seçkiliyə qarşı sıfır tolerantlıq siyasəti.

Əhatə olunan hədəflər

- 5.1: Hər yerdə bütün qadınlara və qızlara qarşı bütün formalarda ayrı-seçkiliyə son qoymaq.



MƏQSƏD 7. HAMININ SƏRFƏLİ, ETİBARLI, DAYANIQLI VƏ MÜASİR ENERJİ MƏNBƏLƏRİNƏ ÇIXIŞINI TƏMİN ETMƏK

Biznes mövzulu məqsədlər

- Yanacaq xərclərini azaltmaq və əməliyyat səmərəliliyini artırmaq üçün yeni nəsil, yanacağa qənaət edən təyyarələrə investisiya yatırmaq.
- Obyektlərdə enerji istehlakı göstəricilərini yaxşılaşdırmaq üçün ağıllı infrastruktur istiqamətində modernləşdirilmələrini həyata keçirmək (məsələn, İHK sistemləri, avtomatlaşdırılmış işıqlandırma).
- Dayanıqlı Aviasiya Yanacağına (SAF) hazırlıq prosesini sürətləndirməklə AZAL-ı yaşıl aviasiya lideri mövqeyinə çatdırmaq.
- Hər sərnişinə düşən enerji intensivliyini azaltmaqla beynəlxalq enerji səmərəliliyi göstəricilərinə cavab vermək.
- ESG-yönümlü bazarlarda və investisiya mühitində təmiz enerji təcrübələrindən rəqabət üstünlüyü kimi istifadə etmək.
- Dəstək avadanlıqlarının elektrikləşdirilməsi və mədən yanacaqlardan asılılığın azaldılması yolu ilə yerüstü əməliyyatların dayanıqlılığını artırmaq.

Gələcək planlar

- Daha çox yanacağa qənaət edən və SAF-a uyğun olan təyyarə modelləri (məsələn, Airbus A320neo, Boeing 787 Dreamliner) ilə donanmanı modernləşdirmək.
- Yerüstü əməliyyatlarda mədən yanacağının istehlakını azaltmaq üçün elektrik nəqliyyat vasitələrinin istifadəsini genişləndirmək.
- Uçuş planları və əməliyyat səmərəliliyinin yaxşılaşdırılması vasitəsilə sərnişin-kilometrə düşən enerji istehlakını azaltmağa davam etmək.
- Enerji səmərəliliyi yüksək olan infrastruktur layihələrinə investisiyaları artırmaq.

Görülmüş tədbirlər

- Enerji səmərəliliyini artırmaq üçün avtomatlaşdırılmış işıqlandırma və optimallaşdırılmış İHK sistemlərinin tətbiqi.
- Elektrik nəqliyyat vasitələrinin istifadəsi sayəsində 2024-cü ildə yerüstü əməliyyatlarda benzin və dizel yanacağının istehlakının təxminən 50% azaldılması.

Əhatə olunan hədəflər

- 7.2: 2030-cu ilədək, qlobal enerji təchizatında bərpa olunan enerjinin payını əhəmiyyətli dərəcədə artırmaq.
- 7.3: 2030-cu ilədək, dünyada enerjidən səmərəli istifadə səviyyəsini iki dəfə artırmaq.



MƏQSƏD 8. DAVAMLI, İNKLÜZİV VƏ DAYANIQLI İQTİSADİ ARTIMI, HAMI ÜÇÜN TAM VƏ MƏHSULDAR MƏŞĞULLUĞU VƏ LAYİQLİ İŞİ TƏŞVİQ ETMƏK

Biznes mövzulu məqsədlər

- Əmək hüquqlarını və təhlükəsiz iş şəraitini gücləndirmək.
- ƏMT Təlimində iştirak səviyyəsini artırmaq.
- Gənclərin məşğulluğunu və nəsil yenilənməsini təşviq etmək.
- Əməliyyatların genişləndirilməsi yolu ilə iqtisadi artımı təşviq etmək. operational expansion.

Gələcək planlar

- İnsan kapitalına investisiyaları artırmaq.
- Simulatorlar və texniki xidmət mərkəzləri daxil olmaqla, daxili və beynəlxalq təlim imkanlarını davamlı inkişaf etdirmək.
- Sağlamlıq və Təhlükəsizlik Büdcəsini artırmaq.
- Peşə sağlamlığında risklərin proq-nozlaşdırılması üçün məlumat analiti-kasını inteqrasiya etmək.

Görülmüş tədbirlər

- İşçi heyəti 52% artıb (2022-ci ildə 926 nəfərdən 2024-cü ildə 1,405 nəfərə).
- QR əsaslı təhlükə hesabatı və IATA/ICAO təhlükəsizlik standartlarına uyğunluq.
- 2024-cü ildə insan kapitalına 110,7 milyon AZN sərmayə qoyulub; təkmilləşdirilmiş hibrid iş modelləri və əlavə iş saatları siyasəti.

Əhatə olunan hədəflər:

- 8.5: 2030-cu ilə qədər gənclər və fiziki məhdudiyyətli şəxslər də daxil olmaqla bütün qadın və kişilər üçün tam və məh-suldar məşğulluğa, ləyaqətli işə və bərabər əməyə görə bərabər ödənişə nail olmaq.
- 8.8: Miqrant işçilər, xüsusilə qadın miq-rantlar və qeyri-sabit məşğulluqda olan-lar daxil olmaqla bütün işçilər üçün əmək hüquqlarını qorumaq və təhlükəsiz, sağ-lam iş şəraitinin təmin edilməsini təşviq etmək.



MƏQSƏD 9: MÖHKƏM İNFRASTRUKTUR YARATMAQ, İNKLÜZİV VƏ DAYANIQLI SƏNAYELƏŞMƏNİ TƏŞVİQ ETMƏK VƏ İNNOVASİYALARA DƏSTƏK VERMƏK

Biznes mövzulu məqsədlər

- Müştəri xidmətlərini rəqəmsallaşdırmaq və əməliyyat proseslərini avtomatlaşdırmaqla innovasiyanı təşviq etmək.
- Azərbaycanı regional aviasiya mərkəzi kimi mövqeyə çıxarmaq üçün beynəlxalq və transsərhəd əlaqələri gücləndirmək.
- İqtisadi inkişafı və regional inteqrasiyanı dəstəkləmək üçün dayanıqlı, etibarlı və müasir aviasiya infrastrukturu inkişaf etdirmək.

Gələcək planlar

- GYD-nin infrastruktur dayanıqlığını artırmaq üçün 9 yeni təyyarə dayanacağı, 3 yönləndirici yolu tikmək və 17/35 uçuş-enmə zolağını modernləşdirmək.
- Qabaqcıl sərnişin xidmətlərini tətbiq etmək.
- 2030-cu ilə qədər uçuş şəbəkəsini 63-dən 80-ə qədər artırmaq.

Görülmüş tədbirlər

- 2024-cü ildə 34,034 uçuş həyata keçirilib (2022-ci ildə 18,196), və istiqamətlər sayı 63-ə çatdırılıb.
- SAF ilə uyğun Airbus A320neo və Boeing 787 təyyarələrinin istifadəsi; 8 yeni təyyarə icarəyə götürülüb, donanmanın orta yaşı 12,2 il.
- Vebsayt və mobil tətbiq yeniləmələri, Sİ çatbot, rəqəmsal geri ödəniş sistemləri və CRM əsaslı fərdiləşdirmə tətbiq edilib.

Əhatə olunan hədəflər

- 9.1: Hamı üçün əlçatan və bərabər çıxış imkanına diqqət yetirməklə, iqtisadi inkişafa və insan rifahına dəstək göstərmək məqsədilə, keyfiyyətli, etibarlı, dayanıqlı və möhkəm infrastrukturu, o cümlədən regional və transsərhəd infrastrukturu inkişaf etdirmək.

9 SƏNAYE, İNNOVASİYA VƏ İNFRASTRUKTUR



MƏQSƏD 11: ŞƏHƏR VƏ YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN AÇIQLIĞINI, TƏHLÜKƏSİZLİYİNİ, DAVAMLILIĞINI VƏ EKOLOJİ DAYANIQLILIĞINI TƏMİN ETMƏK

Biznes mövzulu məqsədlər

- Uçuş tezliyini artırmaq və regional baxımdan xidmət olunmayan istiqamətlərə çıxışı yaxşılaşdırmaqla ağıllı mobilliyi təşviq etmək.
- Yerli ekosistemləri və icma rifahını yaxşılaşdırmaq üçün ağac əkmə və təmizlik kampaniyaları kimi şəhər ətraf mühit təşəbbüslərində iştirak etmək.
- Xüsusilə az təmsil olunan qruplar üçün icma iştirak proqramları və məşğulluq imkanları vasitəsilə əlçatanlıq və inklüzivliyi dəstəkləmək.

Gələcək planlar

- Təyinat məntəqələrinin sayını və uçuş tezliyini, o cümlədən xidmət göstərilməyən əraziləri artırmaqla regional və daxili hava əlaqəsini gücləndirmək.
- Yeni nəsil, daha səssiz və daha az emissiyalı təyyarələrin istifadəsi ilə şəhər ərazilərinin yaxınlığında ətraf mühitə təsirləri azaltmaq.
- Aeroport zonalarında çirklənməni məhdudlaşdırmaq üçün yerdə təmiz əməliyyatlara (məsələn, elektrik vasitələri, yanacaq baxımından səmərəli avadanlıqlar) investisiya qoymaq.

Görülmüş tədbirlər

- 2024-cü ildə 600-dən çox ağac əkilib; yerli QHT-lər və sosial xidmətlərlə əməkdaşlıq.
- Şəhid övladları, qazi ailələri və autizmli şəxslər üçün proqramları dəstəkləmək (məşğulluq üzrə Anlaşma Memorandumu imzalanmışdır).

Əhatə olunan hədəflər

- 11.2: 2030-cu ilədək, yol təhlükəsizliyini təmin edərək, xüsusən də çətin vəziyyətlərdə olan insanlara, qadınlara, uşaqlara, fiziki məhdudiyyətli şəxslərin və yaşlılara xüsusi diqqət yetirməklə ictimai nəqliyyatı genişləndirərək hamı üçün təhlükəsiz, münasib, əlçatan və dayanıqlı nəqliyyat sistemlərini təmin etmək.
- 11.3: 2030-cu ilədək, bütün ölkələrdə inklüziv və dayanıqlı urbanizasiya və birgə, vahid və dayanıqlı şəkildə yaşayış məntəqələrini planlaşdırma və idarəetmə üçün potensialı artırmaq.



MƏQSƏD 12. İSTEHSAL VƏ İSTEHLAKIN SƏMƏRƏLİ MODELLƏRİNƏ KEÇİDİ TƏMİN ETMƏK

Biznes mövzulu məqsədlər

- Əməliyyatları sadələşdirən və ekoloji izləri azaldan rəqəmsal və kağızsız sistemləri tətbiq etməklə resurs səmərəliliyini artırmaq.
- Tullantıların idarə olunmasını yaxşılaşdırmaq və bərpa olunmayan materiallardan (məsələn, plastik) asılılığı azaltmaq üçün dövri iqtisadiyyat təcrübələrini dəstəkləmək.
- Satınalma və təchizatçıların qiymətləndirilməsinə ekoloji və etik standartları inteqrasiya etməklə təchizat zəncirinin dayanıqlılığını artırmaq.
- Məsuliyyətli istehlak siyasətləri və ölçülə bilən ESG göstəriciləri vasitəsilə uzunmüddətli dayanıqlıq və maraqlı tərəflərin etimadını qurmaq.

Gələcək planlar

- AZAL-ın müəssisələrində və əməliyyatlarında təkrar emal proqramlarını genişləndirmək.
- Təkmil izləmə sistemləri ilə təhlükəli və təhlükəsiz tullantılar da daxil olmaqla, tullantı axınına nəzarət və onu idarə etmək.
- Bütün tullantıların emalında dair normative tələblərə uyğunluğu gücləndirmək.
- 2030-cu ilə qədər təkrar emal həcmini 50% artırmağa çalışmaq.

Əhatə olunan hədəflər

- 12.5: 2030-cu ilə qədər tullantıların qarşısının alınması, azaldılması, təkrar emalı və yenidən istifadəsi vasitəsilə onların yaranma həcmini əhəmiyyətli dərəcədə azaltmaq.
- 12.6: Şirkətləri, xüsusən də iri və transmilli şirkətləri dayanıqlı təcrübələri qəbul etməyə və dayanıqlılıqla bağlı məlumatları onların hesabat vermə prosesinə daxil etməyə həvəsləndirmək.

Görülmüş tədbirlər

- 2024-cü ildə yaradılan 921,86-ton qeyri-təhlükəli tullantıdan 9,86-ton (1,07%) təkrar emal edilib.
- Kağız istifadəsini tamamilə aradan qaldıraraq rəqəmsal biletlərə keçid təmin olunub.
- GRI, SASB, IATA, ICAO ilə uyğunlaşdırılma; ESG səylərinin şəffaf şəkildə açıqlanması.



MƏQSƏD 13: İQLİM DƏYİŞİKLİYİ VƏ ONUN TƏSİRLƏRİNƏ QARŞI MÜBARİZƏ ÜZRƏ TƏCİLİ TƏDBİRLƏR GÖRMƏK

Biznes mövzulu məqsədlər

- İqlim dəyişmələrinə dair qlobal tələblərə uzunmüddətli uyğunluğu təmin etmək.
- İqlim dəyişmələrini nəzərə alan təkliflər vasitəsilə sərnişinlərin loyallığını və brendə sadiqliyini artırmaq.
- Hər sərnişin üzrə karbon intensivliyini azaldaraq beynəlxalq karbon intensivliyi standartlarına yaxınlaşdırmaq.
- Biznesin inkişafını aşağı karbonlu inkişafla uyğunlaşdırmaqla iqlim dəyişmələri üzrə milli və qlobal məqsədlərə töhfə vermək.

Gələcək planlar

- Ümumi yanacaq istehlakının 10% azaldılması üçün müvafiq strategiyaları həyata keçirmək.
- Effektivliyin artırılması vasitəsilə hər uçuş üzrə elektrik enerjisi istehlakını 5% azaltmaq.
- Əhatə Dairəsi 1 və Əhatə Dairəsi 2 üzrə karbon emissiyalarının dəqiq uçotunu təmin etmək məqsədilə emissiyaların izləmə sistemlərini gücləndirmək.

Görülmüş tədbirlər

- CarbonClick ilə könüllü karbon kompensasiyası proqramı işə salındı.
- Abşeron yarımadasında 600-dən çox ağac əkilib.
- 2024-cü ildə ümumi İXQ emissiyaları - 538,827 tCO_2e.
- 2023-cü illə müqayisədə aviasiya yanacağının emissiya intensivliyində 25% azalma.

Əhatə olunan hədəflər

- 13.2: İqlim dəyişikliyi ilə bağlı tədbirləri milli siyasətlərə, strategiyalara və planlaşdırmaya daxil etmək.



MƏQSƏD 17: TƏTBİQ VASİTƏLƏRİNİ GÜCLƏNDİRMƏK VƏ DAYANIQLI İNKIŞAF NAMİNƏ QLOBAL TƏRƏFDAŞLIĞI BƏRPA ETMƏK

Biznes mövzulu məsələlər

- Azərbaycan Hava Yollarının qlobal nüfuzunu və reputasiyasını artırmaq üçün beynəlxalq dayanıqlılıq alyanslarında (məsələn, UNGC, IATA, ICAO) fəal iştirak.
- Potensialın artırılması və bilik mübadiləsini dəstəkləyən trans-sərhəd tərəfdaşlıqlar yaratmaqla Azərbaycan Hava Yollarını dayanıqlı aviasiya sahəsində regional lider kimi təqdim etmək.
- Xüsusilə rəqəmsallaşma, infrastruktur və ekoloji layihələrdə dövlət-özəl tərəfdaşlıqları vasitəsilə innovasiyanı təşviq etmək.

Gələcək planlar:

- Sektorlar üzrə dayanıqlılıq prioritetlərini uyğunlaşdırmaq üçün şirkətdaxili sorğular, seminarlar və forumlar vasitəsilə maraqlı tərəf arasında inklüziv dialoqu təşviq etmək.
- Dayanıqlı aviasiya və əlaqə məqsədlərini gücləndirmək üçün sektor üzrə tərəfdaşlar, hava limanları və turizm büroları ilə yeni strateji ittifaqlar inkişaf etdirmək.

Əhatə olunan hədəflər:

- 17.17: Tərəfdaşlıqların təcrübəsi və resurslaşdırma strategiyalarına əsaslanaraq effektiv dövlət, dövlət-özəl və vətəndaş cəmiyyəti tərəfdaşlıqlarını təşviq etmək və inkişaf etdirmək.

Görülmüş tədbirlər:

- 2024-cü ildə UNGC-yə qoşularaq fəaliyyətini insan hüquqları, əməyə dair prinsiplər, ətraf mühit və antikorrupsiya üzrə onun 10 prinsipinə uyğunlaşdırmışdır.
- Aviasiyada dayanıqlıq və karbon izinin azaldılması məqsədilə IATA, ICAO və CarbonClick ilə fəal tərəfdaşlıq.
- Təhsil müəssisələri, həmçinin Boeing və Airbus təlim mərkəzləri ilə əməkdaşlıq.
- “Birgə və Sağlam” kimi sosial təşkilatlarla autizm spektrli insanların inklüzivliyi üçün və Şəhid Ailələrinə Dəstək üzrə Sosial Xidmətlər Agentliyi ilə birgə KSM layihələri həyata keçirilib.
- COP29 zamanı logistika və əməliyyat dəstəyində mərkəzi rol, habelə beynəlxalq iştirakın asanlaşdırılması və qlobal iqlim əməkdaşlığına sadiqliyimiz nümayiş etdirilib.





SOSİAL MƏSULİYYƏT – TƏMƏLİMİZDİR

İŞÇI QÜVVƏSİNİN RİFAHI VƏ İNKLÜZİV MƏDƏNİYYƏT

AZAL-da biz beynəlxalq standartlara tam uyğun gələn inklüziv, etik və məsuliyyətli iş mühitinin yaradılmasına qətiyyətlə sadiqik. 2024-cü ilin yanvar ayından etibarən BMT-nin Qlobal Sazişinin üzvü olaraq, dayanıqlılıq prinsipləri, müasir əmək və iş metodlarının tətbiqi, ekoloji məsuliyyət və korrupsiyaya qarşı mübarizə kimi on əsas prinsipini dəstəkləyirik.


Bu prinsiplər təkcə bəyanat səviyyəsində deyil, həm də daxili fəaliyyətimizdə və gündəlik əməliyyatlarımızda fəal şəkildə tətbiq olunur.

İşə qəbulda ədaləti təmin etmək üçün biz milli əmək qanunvericiliyinə və aviasiya qaydalarına tam uyğun olaraq şəffaf və standartlaşdırılmış işə qəbul prosesinə riayət edirik. İşə qəbul şöbə ehtiyaclarının qiymətləndirilməsi ilə başlayır, ardınca rəsmi platformalarımızda iş elanları yerləşdirilir. İnsan Resursları mütəxəssisləri müraciətləri obyektiv meyarlara uyğun olaraq yoxlayır və seçilmiş namizədlər yazılı testlər, müsahibələr və texniki qiymətləndirmələr daxil olmaqla strukturlaşdırılmış prosesdən keçirlər.

Xüsusi vəzifələr aviasiya protokollarına uyğun olaraq psixoloji testlər, fərdin daha əvvəlki təcrübəsinin yoxlanılması və tibbi müayinələr kimi əlavə addımlar tələb edə bilər. Son işə qəbul qərarları İnsan Resursları və vakansiya elan edən şöbələr arasında əməkdaşlıq yolu ilə qəbul edilir və bütün sənədlər audit və uyğunluq üçün saxlanılır.

Yeni işçilər işə qəbul edildikdən sonra üç aydan altı aya qədər davam edən hərtərəfli tanışlıq proqramında iştirak edirlər. Bu prosesə iş üzrə təlim, təşkilatla tanışlıq və etik davranış qaydaları, təhlükəsizlik, informasiya təhlükəsizliyi və normativ qaydalara uyğunluq üzrə brifinqlər daxildir. İT, obyektlər və idarə rəhbərləri də daxil olmaqla, müxtəlif çarpaz funksiyalara malik tərəflər, inteqrasiya prosesinin maneəsiz keçməsi üçün işə qəbul prosesinə dəstəkl olurlar. Bu strukturlaşdırılmış yanaşma yeni komanda üzvlərini ilk gündən AZAL-ın məqsədlərinə və strateji hədəflərinə effektiv şəkildə töhfə verməyə hazırlayır. İnteqrasiya və uzunmüddətli uğura dair bu öhdəliyin bir hissəsi olaraq, biz ilk andan inklüziv və ədalətli iş mühitinin yaradılmasına da xüsusi diqqət ayırırıq.

Biz bərabər məşğulluq imkanları təmin etməklə yanaşı, müxtəlif işçilərin cəlb olunmasını təşviq edirik. Müxtəlifliyi və ədaləti təşviq etməklə, dəyərlərimizi əks etdirən və əməliyyat bütövlüyümüzü artıran möhkəm bir təşkilati mədəniyyət qurmağı hədəf seçmişik. Ayrı-seçkiliyə, təqibə və qeyri-etik davranışa qarşı ciddi şəkildə sıfır tolerantlıq yanaşmasını qoruyub saxlayır və məsuliyyətli korporativ davranışa sadiqliyimizi gücləndiririk.



Rəhbərlik səviyyəsində AZAL məsuliyyətli və fəaliyyətə əsaslanan mükafatlandırma təcrübələri vasitəsilə idarəetmənin gücləndirilməsini təmin edir. Ən yüksək idarəetmə orqanımız və yüksək vəzifəli rəhbərlərimiz üçün mükafatlandırma çərçivəsi uzunmüddətli təşkilati məqsədlərə uyğunlaşdırılmaq üçün hazırlanıb. Bu çərçivə həm maliyyə, həm də qeyri-maliyyə fəaliyyət göstəricilərini birləşdirir və rəhbərlik üçün mükafatlandırmada dayanıqlılıq, etik davranış və inklüziv artım kimi daha geniş missiyamızın əks olunmasını təmin edir. Fəaliyyətə əsaslanan bonuslar gəlir artımı, mənfəət və xərclərin optimallaşdırılması kimi əsas maliyyə göstəriciləri ilə əlaqələndirilir, təşkilat daxilində hesabatlılığı və strateji uyğunluğu təşviq edir. Bundan əlavə, biz mükafatlandırma siyasətlərini şəffaf şəkildə açıqlayır və onları həm təşkilati fəaliyyət, həm də etik idarəetmə prinsipləri ilə uyğunlaşdırırıq.

İŞÇİ QÜVVƏSİNİN RİFAHI VƏ İNKLÜZİV MƏDƏNİYYƏT

AZAL-ın gender inklüzivliyinə sadiqliyi işçi qüvvəsinin tərkibinin ardıcıl monitorinqi ilə sübut olunur. 2022-ci ildən 2024-cü ilə qədər əməliyyatların genişlənməsi ilə əlaqədar ümumi işçi qüvvəmizin sayı 926-dan 1405-ə qədər (52%) əhəmiyyətli dərəcədə artmışdır. Bu dövrdə qadın işçilərin nisbəti 2022-ci ildəki 47%-dən 2024-cü ildə 39%-ə düşsə də, qadınların mütləq sayı 431-dən 554-ə qədər artmışdır ki, bu da 28,5% artım deməkdir.

52% ARTIM

2022-ci ildən 2024-cü ilə qədər ümumi işçi qüvvəmiz əməliyyatların genişlənməsi səbəbindən əhəmiyyətli dərəcədə artdı.

926 əməkdaş → **1405** əməkdaş

28.5% ARTIM


2022-ci ildən 2022-ci ilə qədər qadın işçilərin nisbəti azalıb, lakin qadınların mütləq sayı artıb.


47% əməkdaş → **39%** əməkdaş

431 qadın → **554%** qadın

Bu, mütləq mənada AZAL-a daha çox qadın əməkdaşların qoşulduğunu göstərir, lakin işə qəbulda kişilərin sayının artması səbəbindən qadın əməkdaşların payı azalıb. Bu tendensiya qismən yeni vəzifələrin əksəriyyətinin əməliyyat və texniki sahələrdə olması ilə izah olunur və burada kişi mütəxəssislər mövcud istedad hovuzunda üstünlük təşkil edir.

Məşğulluq ümumilikdə artsa da, vəzifələr üzrə baş verən dəyişikliklər 2022–2024-cü illər arasında işçi qüvvəsinin ümumi gender nisbətinə təsir göstərib. 2024-cü ildə qadınlar ümumi işçi heyətinin 39 faizini təşkil edib ki, bu da həmin dövrdə işə qəbul tendensiyalarında müşahidə olunan dəyişiklikləri əks etdirir *(Şəkil 7)*.






Şəkil 7. AZAL-da gender bölgüsü

Qadın təmsilçiliyinin bu azalmasını bir çağırış və məqsədyönlü inkişaf üçün bir fürsət kimi qəbul edirik. İrəliləyiş əldə edilsə də, balanslı təmsilçiliyə nail olmaq davamlı bir səy olaraq qalır. Bu məsələninin həllinə tapmaq üçün AZAL, Aviaşirkətin bütün səviyyələrinə qadın kadrların cəlb olunmasına və karyera qurmasına dəstək olmaq üçün məqsədyönlü təşəbbüslər həyata keçirib. Bu fəaliyyətlətə liderlik və texniki vəzifələrə diqqət yetirərək, qadınları aviasiya sahəsində karyera qurmağa təşviq edən dəstəkləyici mühitin yaradılması daxildir. Mədəni və struktur dəyişikliklərinin vaxt tələb etdiyini qəbul edən AZAL, uzunmüddətli təsiri təmin etmək üçün bu səyləri davam etdirməyə sadiqdir.

Bu yolda əhəmiyyətli bir addım IATA-nın "25by2025" ("2025-ə qədər 25") təşəbbüsündə iştirakımızdır. Bu qlobal kampaniya aviasiya sənayesində liderlik və texniki rollarda qadınların və az təmsil olunan qrupların təmsilçiliyini 25% və ya 2025-ci ilə qədər minimum 25%-ə çatdırmağı hədəfləyir. İmza atan tərəf olaraq, AZAL inklüziv iş yeri mədəniyyətini təşviq edən strategiyaların həyata keçirilməsinə sadiqdir.

İŞÇİ QÜVVƏSİNİN RİFAHI VƏ İNKLÜZİV MƏDƏNİYYƏT



Şəkil 8. İşçilərin yaş bölgüsü, 2022–2024

Müəyyən irəliləyişlər müşahidə etsək də, qadınların idarəetmə rollarında ümumi təmsilçiliyi aşağı olaraq qalır. Bu, rəhbərlik səviyyəsində gender müxtəlifliyinə sadiqliyimizin davamlı əhəmiyyətini vurğulayır. Biz məqsədyönlü inkişaf təşəbbüsləri və inklüziv varislik planlaşdırması vasitəsilə bunu təkmilləşdirmək üçün fəal şəkildə çalışırıq.
Bundan əlavə, yaxın gələcəkdə planlaşdırılan "Aviasiyada Qadınlar" forumu bütün səviyyələrdə qadınların irəliləyişini daha da dəstəkləmək üçün nəzərdə tutulur.

Bu səylər gənc qadınları aviasiya karyeralarında həvəsləndirmək və dəstəkləmək üçün mentorluq proqramlarının inkişafını, liderlik təlim imkanlarını və təhsil müəssisələri ilə tərəfdaşlığı əhatə edir. Sənaye miqyaslı səylərlə uyğunlaşmaqla və ölçülə bilən məqsədlər seçməklə, daha əhatəli və ədalətli aviasiya sektoruna töhfə verməyi hədəfləyirik.

Son üç ildə işçi qüvvəmizdə nəzərəçarpacaq dərəcədə demoqrafik dəyişiklik görürük. Bu, gələcək artım və modernləşmə planlarına cavab verən strateji işçi qüvvəsinin seçilməsini göstərir. Son illərdə Aviaşirkətin işçi qüvvəsinin tərkibində nəzərəçarpacaq nəsil dəyişikliyi müşahidə olunub. Bir vaxtlar əsasən orta yaşda olan peşəkarlardan ibarət heyətimiz əhəmiyyətli dərəcədə dəyişib: 30 yaşdan kiçik işçilər 2024-cü ildə işçi qüvvəmizin 36%-ni təşkil edir ki, bu da 2022-ci ildəki 14%-dən *(Şəkil 8)* xeyli artım deməkdir. Təcrübəli işçilər hələ də Aviaşirkətin əhəmiyyətli bir hissəsini təşkil etsələr də, gənc kadrların artan sayı və yaşlı işçilərin payının nəzərəçarpacaq dəcərəcədə azalması ilə xarakterizə olunan gəncləşmə istiqamətində aydın və ardıcıl bir tendensiya mövcuddur. Bu dəyişiklik işçi qüvvəsini aviasiya sektorunun dinamik tələblərinə uyğunlaşdırmaq üçün daha geniş strategiyanı əks etdirir.

Statistik məlumatlar uyğunlaşma qabiliyyətinə, texnoloji imkanlara və uzunmüddətli artım potensialına təkan verə biləcək gənc kardların cəlb olunması istiqamətində məqsədyönlü seçimin edilməsini nümayiş etdirir. Təcrübəli mütəxəssislər hələ də əksəriyyəti təşkil etsələr də, AZAL növbəti nəslə proaktiv şəkildə investisiya qoyur.

Bu il təşkilati mədəniyyətin gücləndirilməsi və işçilərin rifahının təmin edilməsi üzrə davamlı öhdəliyimizin bir hissəsi olaraq şirkət miqyasında İşçilərin Cəlb Olunması Sorğusunu keçirməyə başladıq. Şirkətin bütün bölmələrini əhatə etmək üçün hazırlanmış sorğuda müxtəlif şöbələrdən 5150 işçi iştirak etmişdir. Sorğu SMS mesajları və elektron poçt dəvətnamələri vasitəsilə aparılmışdır. İnklüzivliyi təmin etmək üçün cavablar həm Azərbaycan, həm də ingilis dillərində verilmişdir.

30-dan aşağı | 30-50 | 50-dən yuxarı

İŞÇİ QÜVVƏSİNİN RİFAHI VƏ İNKLÜZİV MƏDƏNİYYƏT

Nəticələr inandırıcı idi: əməkdaşların cəlb olunma göstəricisinin 83% qədər yüksək olması yalnız AZAL-ın missiyasına dərin sadaqət deyil, həm də işçi heyətin onlara dəyər verilən və motivasiya edən iş mühitində çalışdığından xəbər verir. Respondentlərin 59% cəlb olunma səviyyəsinin yüksək, 73%-i isə şirkətdə uzun müddət qalmaq niyyətində olduğunu bildirib ki, bu da AZAL-ın vahid, sadiq və motivasiyalı işçi qüvvəsi qurmaq istiqamətində uğurlarını sübüt edir *(Şəkil 9)*.

Sorğulara cavablarda işçilərin komanda işinə, təşkilatın nüfuzuna və ümumi iş məmnuniyyətinə verdikləri dəyərin göstəricisidir. Bu fikirlər, işçilərə individual yanaşmamızın müsbət təsirini bir daha təsdiqləyir və işçi heyəti ilə rəhbərlik arasında davamlı dialoqun vacibliyini vurğulayır.

Fikir mübadilələrinin aparılması, işçilər arasında aparılan sorğular və bütün heyətlə keçirilən görüşlər kimi interaktiv platformalar vasitəsilə mütəmadi olaraq toplanır ki, bu da rəhbərliyin işçi heyətinin gözləntilərinə qarşı çevik və həssas münasibətini nümayiş etdirir.

2024-cü ildə sosial media kanallarımızda canlı korporativ mədəniyyətimizi və əməkdaşların fəaliyyətlərini nümayiş etdirdiyimiz “Life at AZAL” təşəbbüsünü təqdim etdik.

Bu kampaniya işçilərimizin müxtəlif və fərqli təcrübələrini işıqlandırır, fərdi töhfələrini tərənnüm edir və iş yerimizdəki mədəniyyətimizə pərdəarxası bir baxış təqdim edir. Real hekayələri və perspektivləri paylaşmaqla, təşəbbüs vahid icma hissimizi artırır və AZAL-ın şəffaf və mənsubiyyət imicini daha geniş ictimaiyyətə təqdim edir. Bu, korporativ hekayəmizdə insan elementini vurğulamağa və uğurumuzu təmin edən insanları tanımağa olan sədaqətimizi gücləndirir.

Hörmətə əsaslanan və inklüziv iş mühitinin qorunması daimi prioritetdir. AZAL daxili siyasətlərə və milli qanunvericiliyə, xüsusən də “Mediasiya haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq aydın şəkildə müəyyən edilmiş münaqişələrin həlli mexanizmlərini tətbiq edib. İşçilər mövcud rabitə kanallarından istifadə edərək narahatlıqlarını dərhal bildirməyə təşviq olunurlar. Zəruri hallarda, İnsan Resursları İdarəsi ədalətli nəticə əldə etmək üçün strukturlaşdırılmış dialoqda vasitəçi rolu oynayır. Hesabatlılıq və AZAL-ın korporativ idarəetmə prinsiplərinə uyğunluq təmin etmək məqsədilə etik standartların və ya davranış qaydalarının pozuntuları ilə bağlı işlər rəsmi araşdırma və həll üçün daxili nəzarət və audit orqanlarına göndərilir.



İŞÇİLƏRİN CƏLB OLUNMASI SORĞUSU

59% Yüksək bağlılıq səviyyəsinə malik

73% Uzunmüddətli qalma ehtimalı

83% Dayanıqlı iştirak göstəricisi

Şəkil 9. İşçilərin məşğulluğu sorğusu

Sorğu sənayedəki orta göstəriciləri üstələyərək və işçilərin AZAL-ın missiyasına güclü uyğunluğunu əks etdirən 83%-lik nəzərəçarpan Dayanıqlı Cəlb Olunmanı nümayiş etdirdi.

2024-cü ildə biz iki dildə və fərqli rəqəmsal formatda təklif olunan bütün biznes bölmələrinin bütün idarələri üzrə 5150-dən çox işçini əhatə edən hərtərəfli İşçilərin Cəlb Olunması Sorğusu keçirdik.



İŞÇİLƏRİN İŞƏ QƏBULU VƏ DÖVRİYYƏSİ 2024


Bugünkü işçi qüvvəsinin dəyişən gözləntilərini qarşılamaq üçün AZAL 2024-cü ilin sonlarında hibrid iş rejimini tətbiq edib. Bu mütərəqqi yanaşma işçilərə peşəkar məsuliyyətləri şəxsi rifahla balanslaşdırmağa imkan verməklə yanaşı, həm də AZAL-ın işçilərin rifahına düşünülmüş, vahid yanaşmaya sadiqliyini, həm peşəkar inkişafa, həm də şəxsi məmnuniyyətə önəm verməsini əks etdirir.

Sağlamlıq və rifah təşəbbüslərimizin əsas istiqamətlərindən biri olaraq, AZAL illik tibbi müayinələr, qripə qarşı peyvəndləri və məxfi məsləhət xidmətlərinə çıxışı əhatə edən, lakin bunlarla məhdudlaşmayan hərtərəfli tibbi sığorta təmin edir. Bu kimi təminatlar əməkdaşların fiziki və zehni rifahını dəstəkləmək üçün nəzərdə tutulub.

Əsas tibbi sığorta ilə yanaşı, AZAL həmçinin şəxsi nailiyyətləri nəzərə alan, müasir həyatın tələblərini asanlaşdıran və iş-həyat balansını təşviq edən bir sıra işçi imtiyazlarına investisiya qoyur. Belə üstünlüklərdən biri də işçilərin və onların ailələrinin endirimli və ya pulsuz uçuş biletlərindən, oteldə qonaqlamaq üçün xüsusi təkliflərdən və avtomobil icarəsi xidmətlərindən yararlana biləcəyi MyIDTravel platformasıdır. Bu təkliflər işçilərimiz üçün səyahəti daha əlçatan etmək məqsədi daşıyır. Mədəni fəaliyyəti və işçilərin rifahını təşviq etmək məqsədilə hər il qadın işçilərə Beynəlxalq Qadınlar Günündə mədəni tədbirlər üçün vauçerlər və hədiyyə kartları, eləcə də Beynəlxalq Uşaqlar Günündə işçilərin uşaqları üçün yerli təhsil əyləncə parkına pulsuz giriş imkanı təqdim edirik.

AZAL bayram günlərində bütün işçilərinə mövsümi bonuslar təqdim etməklə icma və inklüzivliyə dəyər verir. Həmçinin, hörmət və minnətdarlıq əlaməti olaraq Zəfər Günündə veteranlara, hərbi əməliyyatların iştirakçılarına və həlak olan hərbçilərin ailələrinə maddi dəstək ayırırıq.

Bu təşəbbüslər birlikdə götürüldükdə, AZAL-ın hər bir işçinin karyerasının hər mərhələsində özünü dəyərli, səlahiyyətli və qayğı ilə əhatə olunmuş hiss etməsinə imkan verən dəstəkləyici, inklüziv və təqdiredici iş mühiti yaratmaq öhdəliyini əks etdirir. 2024-cü il üzrə AZAL-ın işçi qüvvəsinə dair məlumatları bizim artım, sabitlik və inklüziv məşğulluq təcrübələrimizi əks etdirir *(Şəkil 10)*.



Şəkil 10. İşçilərin işə qəbulu və kadr dəyişikliyi 2024

Cəmi 306		Cəmi 124		Dərəcə	
Kişi	Yeni işə qəbul edilən işçilərin ümumi sayı 218	Kişi	İşçilərin dövriyyəsinin ümumi sayı 71	Kişi	İşçilərin dövriyyə əmsalı 8.3%
Qadın	Yeni işə qəbul edilən işçilərin ümumi sayı 88	Qadın	İşçilərin dövriyyəsinin ümumi sayı 53	Qadın	İşçilərin dövriyyə əmsalı 9.6%

İŞÇİLƏRİN ÖYRƏNMƏ PROSESİ VƏ POTENSİALININ ARTIRILMASI TƏŞƏBBÜSLƏRİ

Biz texniki mükəmməlliyi və beynəlxalq standartları özündə birləşdirən aviasiya mütəxəssislərinin yetişdirilməsini yüksək strateji prioritet hesab edirik.

1992-ci ildə AZAL QSC-nin nəzdində yaradılmış Milli Aviasiya Akademiyası (MAA) ilə uzunmüddətli tərəfdaşlığımız Azərbaycanda mülki aviasiya üçün kadr hazırlığının təməlini təmsil edir. MAA nəzəri təlimi praktiki təcrübə ilə birləşdirən, məzunların həm yerli, həm də qlobal aviasiya tələblərinə cavab verməyə tam hazır olmasını təmin edən müfəssəl təhsil proqramları təklif edir. MAA və beynəlxalq təlim mərkəzləri ilə uzunmüddətli əməkdaşlığa əsaslanaraq, biz əsas funksiyalar üzrə məqsədyönlü təlimlər keçmək üçün onun daxili imkanlarmızı genişləndirdik. Mərkəzlərdən birində Airbus A320/A319, Boeing 757/767, Embraer E190 və ATR-42/72 kimi bir sıra təyyarələr üçün ən müasir uçuş simulyatorları fəaliyyət göstərir. Bu simulyatorlar qabaqcıl beynəlxalq standartlara cavab verir, immersiv və real mühiti yüksək dərəcədə təkrarlayan təlim imkanları təklif edir. Bütün təlim proqramları həm Azərbaycan Aviasiya Qaydalarına (AAQ), həm də beynəlxalq aviasiya standartlarına tam uyğunlaşdırılıb və bu da tələbələrin müasir aviasiyanın tələblərinə cavab vermək üçün müfəssəl hazırlığını təmin edir. Bu əməkdaşlıq AZAL-ın biliyə, əməliyyat mükəmməlliyi və təhlükəsizlik prinsiplərinə əsaslanan işçi qüvvəsinin inkişaf etdirilməsi üzrə baxışını əks etdirir.

Təlim prosesini daha da dolğun etmək üçün AZAL Azərbaycan Hərbi Hava Qüvvələri Məktəbi və Türkiyədəki Kapadokiya Universiteti kimi nüfuzlu təhsil müəssisələri ilə əməkdaşlıq edir. Bu tərəfdaşlıqlar ən yaxşı təcrübələrin mübadiləsini təşviq və ən son təlim metodologiyalarını tətbiq edir, AZAL-ın dayanıqlı inkişafa sadiqliyini dərinləşdirir. Beynəlxalq əməkdaşlığı genişləndirməklə AZAL qlobal aviasiyanın dinamik ehtiyaclarına hazır güclü bir kadr potensialını təmin edir.

Yerli təlim infrastrukturuna əlavə olaraq, AZAL pilotlarının dünya səviyyəli təhsil və təlim mərkəzlərində təyyarələr üzrə kurs keçməsini təmin edir. Boeing pilotları ABŞ və Böyük Britaniyadakı (Gatwick) Boeing Təlim Mərkəzlərində təlim keçir, Airbus pilotları isə Fransadakı Airbus müəssisələrində proqramlarda iştirak edirlər. Bu ixtisaslaşmış təlimlər təhlükəsizlik, texniki bacarıq və əməliyyat uyğunlaşmasına yönəlmiş, uçuş heyətimizi çətin uçuş mühitlərində vəzifələrin səmərəli şəkildə yerinə yetirmək üçün lazımi biliklərlə təchiz edir.

AZAL-ın təhlükəsizliyə və özünü təmin etməyə verdiyi önəm, Aviaşirkət daxilində həyata keçirilən təyyarələrə texniki xidmət üzrə təlim proqramı ilə bir daha təsdiqlənir.
Qabaqcıl texniki mərkəzlərimizdə təqdim olunan bu praktik proqram, diaqnostika, sistemlərin əsaslı təmiri və mexaniki problemlərin aradan qaldırılması sahəsində dərin bilik və təcrübənin inkişafına xidmət edir.

Şirkətdaxili texniki xidmət imkanlarına investisiya qoymaqla, AZAL ardıcıl olaraq yüksək texniki standartlara nail olur, əməliyyat çevikliyini artırır və xarici təchizatçılardan asılılığı azaldaraq ətraf mühitə təsiri minimuma endirir.
Bu kompleks yanaşma, donanmanın uzunmüddətli etibarlılığını, resursların optimallaşdırılmasını və təhlükəsizlik səviyyəsinin daha da gücləndirilməsini təmin edir.

AZAL, əməliyyat səmərəliliyinin və təşkilati dayanıqlığın artırılmasına yönəlmiş şirkət miqyaslı təlim proqramları tətbiq etməklə kadr inkişafı imkanlarını genişləndirib. Bu təşəbbüs aviasiya sənayesində yeni normativ tələblərə, təhlükəsizlik və xidmət standartlarına uyğunlaşmaq qabiliyyətimizi gücləndirib. Təlim proqramları əməliyyat hazırlığı, standartlaşdırılmış protokollar və risk əsaslı ssenari planlaşdırması nəzərə alınmaqla hazırlanıb. Əsas diqqət işçilərin dəyişən çətinliklərə əminliklə hazır olmasına imkan verən simulyasiyalar və sənayeyə xas praktik məşğələlər vasitəsilə tətbiqi biliklərin verilməsinə yönəlib.



2024-CÜ İLDƏ TƏLİMLƏRƏ DAİR İCMAL

AZAL bütün təhsil proqramlarında müxtəliflik və gender inklüzivliyi prinsiplərini dəstəkləməyə davam edir. 2024-cü ildə biz qadınları həm texniki, həm də liderlik proqramlarında iştirak etməyə fəal şəkildə təşviq etdik, əsas aviasiya vəzifələrində az sayda təmsil olunma problemini həll etdik və daha ədalətli işçi qüvvəsini təşviq etdik.

Bu inklüziv inkişaf öhdəliyi beynəlxalq gözləntilərə uyğun bacarıqlı, müxtəlif və çevik komanda qurmaq kimi daha geniş məqsədimizi dəstəkləyir. Bu il keçirilən 13,989 təlimlə AZAL komandalarını səfərbər və müasir çağırışlara hazır saxlamaq üçün ciddi öhdəliyini nümayiş etdirir. Bu, sadəcə say göstəricisi deyil, həm də insan kapitalına davamlı investisiyanı ifadə edir. Təlimlərdə iştirak edən 3,785 əməkdaş daha təhlükəsiz və daha səmərəli əməliyyatlara töhfə vermək üçün öyrənib, inkişaf edib. Orta hesabla hər bir iştirakçı təxminən 16.5 saat təlim alıb ki, bu da AZAL-ın mənalı peşəkar inkişaf istiqamətindəki səylərini göstərir.

Daxili potensialı gücləndirmək və gələcək liderləri yetişdirmək məqsədilə “YeniSən” Karyera İnkişafı Proqramı həyata keçirilib. Bu təşəbbüs yüksək liderlik potensialına malik əməkdaşları müəyyənləşdirib, qiymətləndirib və onların daha sürətli karyera yüksəlişinə hazır olmasını dəstəkləmək üçün yaradılıb. Proqram varislik planlaşdırılmasında və strateji kadr davamlılığında əsas rol oynayır və vacib vəzifələrin daxili peşəkar namizədlərlə təmin olunmasını mümkün edir. Çoxmərhələli qiymətləndirmə çərçivəsində namizədlər məntiqi və say analizi testləri, şəxsiyyət və motivasiya sorğuları, qrup müzakirələri və analitik təqdimatlar üzərindən dəyərləndirilir. Bu yanaşma onların strateji düşünmə, ünsiyyət və təzyiq altında qərarvermə bacarıqlarını ölçür.

Təlimlərin ümumi sayı:

13.989

İştirakçıların ümumi sayı:

3.785

Tədris saatlarının ümumi sayı:

62.444

Şəkil 11. 2024-cü ildə keçirilən təlimlərin icmalı

“YENİSƏN” KARYERA İNKİŞAFI PROQRAMI

YeniSən

Yüksək Potensialını kəşf et!

UÇUŞDAN BAŞLAYARAQ YERÜSTÜ DƏSTƏK XIDMƏTLƏRİNƏ QƏDƏR YAXŞI TƏLİM KEÇMİŞ KOMANDAMIZ UĞURUMUZUN ƏSASINI TƏŞKIL EDIR.

Proqrama 150-dən çox müraciət daxil olub, seçim mərhələlərindən uğurla keçən iştirakçılar inkişaf prosesinə cəlb edilib. Ümumilikdə 87 əməkdaş meyarlara uyğun gəlib və prosesə qatılıb. Onların 77 faizi kişi, 23 faizi isə qadın olub ki, bu da karyera inkişafına bərabər çıxış imkanları yaratmaq istiqamətində davam edən səylərimizi əks etdirir.

Bu təşəbbüslər AZAL-ın işçi qüvvəsinin inkişafına dair kompleks və gələcəyə yönəlmiş yanaşmasını ifadə edir. Bu inteqrasiya olunmuş strategiya dəyişkən və rəqabətli aviasiya mühitində uğur qazanmaq üçün tələb olunan peşəkar potensialı formalaşdırır və AZAL-ı dayanıqlı gələcəyə sahib, talant yönümlü bir aviaşirkət kimi mövqeləndirir.

Təhsil, beynəlxalq tərəfdaşlıqlar, texniki hazırlıq və liderlik inkişafına yönəldilən investisiyalar sayəsində əməkdaşlarımız AZAL-ın təhlükəsizlik, keyfiyyət və innovasiya dəyərlərini qorumağa tam hazır olur.

Rəhbərlərin İnkişafı Proqramı

Böyük Britaniyadakı İmperial Kollecin Biznes Məktəbində altıaylıq liderlik və idarəetmə kursuna qeydiyyat.

Karyera İmkanları

Daxili mobillik və vakant rəhbər vəzifələrə yüksəlmə imkanları.

Həmkar mentorluğu

Gələcək proqram iştirakçılarını istiqamətləndirmək və ilhamlandırmaq üçün həmkar mentorluğu fəaliyyətində iştirak.

Peşəkar Liderlik Kouçinqi

Sertifikatlı daxili liderlik mütəxəssislərindən fərdi kouçinq.

Şəkil 12. “YeniSən” inkişaf proqramı

İŞÇİLƏRİN SAĞLAMLIĞI VƏ TƏHLÜKƏSİZLİYİ

İşçilərin sağlamlığına, təhlükəsizliyinə və rifahına üstünlük vermək AZAL-da ciddi şəkildə riayət olunan əsas prinsipdir. Təhlükəsiz və səlahiyyətli işçi qüvvəsi aviasiya xidmətlərinin davamlılığını, etibarlılığını və dayanıqlığını qorumaq üçün vacibdir. Bu fəlsəfə AZAL-ın strateji və gündəlik əməliyyatlarında dərin köklərə əsaslanan əməyin mühafizəsi və təhlükəsizliyinə (ƏMT) hərtərəfli yanaşmasına rəhbərlik edir.

AZAL-ın təhlükəsizlik təcrübələri beynəlxalq səviyyədə tanınmış əməyin mühafizəsi və təhlükəsizliyi idarəetmə çərçivələrinə, xüsusən də ISO 45001:2018 sertifikatı əsasında qurulub. Bundan əlavə, AZAL ICAO, IATA və milli mülki aviasiya orqanlarının sərt qaydalarına riayət edir. Bu standartlar birlikdə AZAL-ın inteqrasiya olunmuş Təhlükəsizlik İdarəetmə Sisteminin (SMS) əsasını təşkil edir ki, bu da təhlükələri proaktiv şəkildə müəyyən edir, riskləri azaldır və təşkilat daxilində fəaliyyəti izləyir. Davam edən səylərimizin bir hissəsi olaraq, 2024-cü ildə işçilərin 8%-i ƏMT üzrə təlimlərdə iştirak etmişdir ki, bu da 2023-cü ildəki 5%-dən çox və illik müqayisədə 3% artım deməkdir. İş yerlərinin infrastrukturunun təkmilləşdirilməsi və təmiz içməli suya çıxış da daxil olmaqla, obyektlərimizdə iş şəraitinin yaxşılaşdırılması üçün 70,000 manat sərmaya qoyulub. Eyni zamanda, işçilərimizin iş yerində lazımi şəkildə təchiz olunmasını və qorunmasını təmin etmək üçün yüksək keyfiyyətli fərdi mühafizə vasitələrinə 30,000 AZN-dən çox vəsait ayrılıb *(Şəkil 13)*.

Şəkil 13. 2024-cü ildə əməyin mühafizəsi və təhlükəsizliyinin əsas məqamları

4%
ARTIM
ƏMT Təlimlərində qəza və xəsarətlərin azalmasına səbəb oldu

400,000
AZN
iş şəraitinin yaxşılaşdırılmasına sərmayə qoyulub

Təhlükəsiz Əməliyyatlar üçün Monitorinq və Hesabat

İl ərzində üç ölüm hadisəsi* baş verməsi və ölümlə nəticələnən halların nisbətinin 0,06 olmasına baxmayaraq, hər bir hal hərtərəfli tədqiq və beynəlxalq standartlara uyğun şəkildə müvafiq tədbirlər tətbiq olunur.

Həmçinin, 2023-cü ildəki istehsalatda baş verən 2 hadisədən fərqli olaraq 2024-cü ildə 4 xəsarət halı qeydə alınıb ki, bu da sırf şəffaflığın artırılmasının və daha sağlam hesabat sistemlərinin qurulmasının təcəssümüdür. Bundan əlavə, ilk dəfə olaraq Əmək Qabiliyyətinin İtirilməsinə Səbəb olan Xəsarətlərin Əmsalını (LTIFR) hesabladıq ki, bu da 200,000 saata 1,7 göstəricisinə bərabərdi. Bu göstəricilər davamlı inkişafa, hesabatlılığa və işçilərimizin sağlamlığının və rifahının qorunmasına olan sadiqliyimizi bir daha gücləndirir.

Tədbirlərdə iştirak, Təlim və Sağlamlıq

Təhlükəsizlik idarəetmə sisteminə Sağlamlıq, Əməyin Təhlükəsizliyi, Ətraf Mühitin Mühafizəsi və Keyfiyyətə Nəzarət (SƏTƏMM və KN) İdarəsi nəzarət və təhlükəsizlik protokollarının ardıcıl tətbiqini və təkmilləşdirilməsini təmin edir.

Bu sistemin əsas sütunu güclü və əlçatan hesabat mexanizmidir. İşçilər təhlükəsizliklə bağlı narahatlıqlarını xüsusi qaynar xətt, elektron poçt, yerində məlumat lövhələri və QR kod sistemləri daxil olmaqla, müxtəlif kanallar vasitəsilə bildirə bilərlər. QR kodlarının istifadəsi xüsusilə təsirlidir, çünki bu, anonim hesabat verməyə imkan verir və "günahkar axtarma" mədəniyyətini inkişaf etdirir.

Bütün hesabatlar SƏTƏMM koordinatorları tərəfindən fəal şəkildə izlənilir və nəzərdən keçirilir, onlar rəy siklini bağlamaq üçün müntəzəm olaraq yerində yoxlamalar və sonrakı qiymətləndirmələr aparırlar.

* Ölüm hallarının sayı 24 dekabr tarixində Bakı–Qroznı reysində baş vermiş faciəli hadisə ilə əlaqədardır.

SAĞLAMLIQ VƏ ƏMƏYİN TƏHLÜKƏSİZLİYİ

AZAL-da insidentlərin idarə olunması, bütün təhlükəsizlik hadisələrinin 24 saat ərzində bildirilməsini və bir ay ərzində həll edilməsini tələb edən strukturlaşdırılmış bir proseslə idarə olunur. Düzəldici tədbirlərin uzunmüddətli effektivliyini təmin etmək üçün daxili proseslər auditlər vasitəsilə sənədləşdirilir və təsdiqlənir. Bu sistematik yanaşma artıq təhlükəsizlik uyğunsuzluqlarının nəzərəçarpacaq dərəcədə azalmasına gətirib çıxarıb və şirkət səviyyəsində məsuliyyətli davranış və risklərin azaldılması göstəricilərinin yaxşılaşdığını nümayiş etdirib.

Təhsil və təlim AZAL-ın təhlükəsizlik mədəniyyətinin əsasını təşkil edir. Bütün yeni işçilər və podratçılar məcburi SƏTƏMM və NK giriş proqramından keçməlidirlər, mövcud işçilər isə müntəzəm olaraq təkmilləşdirmə kurslarında qatılmalıdırlar. Yerüstü dəstək, texniki xidmət və ya təmizləmə fəaliyyəti ilə məşğul olan yüksək riskli vəzifələrdə çalışan işçilər üçün ixtisaslaşdırılmış təlimlər keçirilir. Bu sessiyalar hündürlükdə işləmək, hərəkət məhdudiyyətə olan məkanlara daxil olmaq və ağır avadanlıqların idarə olunması kimi spesifik təhlükələri əhatə edir. Ofisdə çalışan işçilər həmçinin iş mühitlərinə uyğun olaraq hazırlanmış təhlükəsizlik təlimatları alırlar. Təlimin məzmununu və çatdırılmasını daim təkmilləşdirmək üçün təlim sonrası rəylər toplanır.

AZAL işçilərin təhlükəsizlik təşəbbüslərində iştirakına böyük diqqət yetirir. Məsələn, yeni fərdi mühafizə vasitələri (FMV) istismara qəbul olunduqdan əvvəl, işçilər həm təhlükəsizlik, həm də rahatlıq tələblərinə cavab verdiyinə əmin olmaq üçün avadanlıqları sınaqdan keçirməyə və qiymətləndirməyə dəvət olunurlar. Bu əməkdaşlıq yanaşması təhlükəsizlik qərarlarına sahiblik və etibar hissini artırır. Bundan əlavə, bütün üçüncü tərəf podratçıları və təchizatçıları təhlükəsizlik brifinqlərindən keçməki və AZAL-ın daxili prosedurlarına riayət etməli, bütün işçi qüvvəsi daxilində vahid təhlükəsizlik standartlarını təmin etməlidirlər.

AZAL-da sağlamlıq və təhlükəsizlik fiziki risklərdən kənara çıxaraq daha geniş işçi rifahını da əhatə edir. İllik tibbi müayinələr, mövsümi qrip peyvəndləri və yerində tibbi xidmətlər pulsuz təmin edilir. Ruhi sağlamlığın vacibliyini qəbul edən AZAL, həmçinin işçilərə stressi idarə etməyə və emosional tarazlığı qorumağa kömək etmək üçün məxfi məsləhət xidmətləri və dayanıqlılıq artırma seminarları təklif edir. Aviasiya sənayesində vacib bir problem olan yorğunluq növbələrin fərqli təşkili, məcburi istirahət müddətləri və rəhbərliyin nəzarəti vasitəsilə diqqətlə izlənilir. İşçilər tərəfindən ifadə olunan narahatlıqların dərhal və həssaslıqla həll edilməsini təmin etmək üçün SƏTƏMM platforması vasitəsilə yorğunluq barədə anonim məlumat verməyə təşviq olunurlar.

Gələcəyə baxdıqda, AZAL sağlamlıq və təhlükəsizlik təcrübələrində davamlı təkmilləşdirməyə sadiqdir. Planlaşdırılan təşəbbüslərə proqnozlaşdırıla bilən risklərin idarə edilməsini təmin etmək üçün məlumatların təhlilinin təhlükəsizlik monitorinq sistemlərinə daha dərin inteqrasiyası daxildir. Aviaşirkət həmçinin həm fiziki, həm də psixoloji sağlamlıq proqramlarını genişləndirməyi və davranış təhlükəsizliyi təlimi təşəbbüslərini genişləndirməyi hədəfləyir.

Bu davamlı səylər vasitəsilə AZAL işçilərinin dəyərli, qorunan və səlahiyyətli olduqlarını hiss etdikləri təhlükəsiz, sağlam və davamlı bir iş yeri yaratmaq öhdəliyini bir daha təsdiqləyir. Təhlükəsizliyə bu sarsılmaz yalnız sədaqət işçi məmnuniyyətini artırmır. Eyni zamanda o, AZAL-ın etibarlı, dünya səviyyəli aviasiya xidmətləri göstərmək qabiliyyətini də gücləndirir. Bu davamlı səylər vasitəsilə AZAL, əməkdaşların dəyərli, qorunan və səlahiyyətli olduqlarını hiss etdikləri təhlükəsiz, sağlam və sağlam iş mühitinin yaradılmasına olan öhdəliyini bir daha təsdiqləyir.

Təhlükəsizliyə göstərilən bu ardıcıl diqqət təkcə işçi məmnuniyyətini artırmır, həm də AZAL-ın etibarlı və dünya səviyyəli aviasiya xidmətləri göstərmək qabiliyyətini gücləndirir.



İCMANIN İŞTİRAKI VƏ KSM TƏŞƏBBÜSLƏRİ

Dayanıqlılıq sadəcə əməliyyatların optimallaşdırılması ilə bağlı deyil — eyni zamanda şirkət tərəfindən həyatına və yaşayışına təsir edən insanları və icmaları dəstəkləməklə bağlıdır. Əməliyyatımız müxtəlif bölgələri və mədəniyyətləri əhatə edir. Buna görə də, əməliyyatlarımız, təsirimiz və əməkdaşlığımız daxilində icmaları dəstəkləmək bizim məsuliyyətimizdir.

KSM-ə əsas yanaşma əməliyyatlarımızın uzunmüddətli dayanıqlığının ətrafımızdakı icmaların rifahından ayrılmaz olmadığı prinsipi üzərində qurulub. Təşəbbüslərimiz bu qarşılıqlı əlaqəni qoruyub saxlamaq, sosial və ekoloji ehtiyacları əməliyyatımızın təhlükəsizliyi və fəaliyyətinə tətbiq etdiyimiz eyni məsuliyyət hissi ilə həll etmək üçün hazırlanıb.

KSM fəaliyyətlərinin hər biri həqiqi ehtiyacları və təşkilati dəyərlərimizi əks etdirən beş əsas diqqət sahəsi ətrafında qurulub *(Şəkil 14)*. Onlar sağlamlığın yaxşılaşdırılmasına, keyfiyyətli təhsilin təmin edilməsinə, iqtisadi artımın təşviqinə və iqlim dəyişikliyi ilə bağlı tədbirlər görülməsinə yönəlmiş müvafiq DİM-lərə müsbət töhfə verir.



Şəkil 14. 2024-cü ildə AZAL-ın KSM fəaliyyətinin istiqamətləri

KSM-ə yanaşmamız, kim olduğumuzu və icmaların rifahındakı rolumuza baxışımızı əks etdirən hərəkətlər toplusudur. Bir aviaşirkət olaraq böyüməyə davam etdikcə, sosial və ətraf mühit səylərimizi məqsədyönlü, məsuliyyətli və inkişafımızı təmin edən icmalara hörmətlə irəliləməyə sadiq qalırıq.



2024-CÜ İLDƏ AZAL-IN KSM FƏALİYYƏTİNİN İSTİQAMƏTLƏRİ



Sağlamlıq və Rifah

Biz könüllü qanvermə kampaniyaları və sağlamlıqla bağlı maarifləndirmə təşəbbüsləri vasitəsilə ictimai səhiyyə səylərinə fəal şəkildə töhfə veririk. Bu proqramlar tibbi ehtiyacı olan şəxsləri dəstəkləmək, işçilər arasında könüllülük ruhunu inkişaf etdirmək və insan ləyaqətinə və qayğısına olan sədaqətimizi əks etdirmək üçün nəzərdə tutulub.



Ətraf Mühitin Mühafizəsi və Dayanıqlılıq

Biz ağac əkmə kampaniyalarından və batareyaların təkrar emalından tutmuş ekoloji cəhətdən həssas ərazilərdə sahilboyu təmizləmə işlərinə qədər praktiki ətraf mühit tədbirlərində iştirak edirik. 2024-cü ildə tərəfimizdən 600-dən çox ağac əkolib. Bu proqramlar ətraf mühit məsuliyyətinin görünən və hiss olunmalı olduğuna inancımızı əks etdirir. Onlar həmçinin işçilərin cəlb olunması və ictimaiyyətin məlumatlandırılması üçün platforma rolunu oynayır.



Həssas Qruplara Dəstək və İnklüzivlik

Biz şəhid övladları üçün ekskursiyalar və yay proqramları kimi məqsədyönlü təşəbbüslər, o cümlədən bu yaxınlarda Sosial Xidmətlər Agentliyi ilə birgə təşkil olunmuş Pilot Tədris Mərkəzinə səfər etməklə həssas qrupları dəstəkləyirik. Biz həmçinin autizm spektrində olan şəxslər üçün fəaliyyətlər, məsələn, “Birgə və Sağlam” İctimai Birliyi ilə əməkdaşlıq çərçivəsində Dünya Autizm Maarifləndirmə Günündə keçirilən xüsusi tur vasitəsilə inklüzivliyi təşviq edirik. Bundan əlavə, autizmli insanlar üçün məşğulluq imkanlarını asanlaşdırmaq üçün anlaşma memorandumu imzalanıb. Bu səylərlə yanaşı, veteranların ailələrini yad etmək və kollektiv yaddaşı qorumaq üçün xatirə və mədəni proqramlarda iştirak edirik.



Təhsil və Maarifləndirmə

Biz, xüsusən də az təminatlı təbəqədən olan gənclərin marağını artırmaq və gələcək potensiallarını inkişaf etdirmək üçün qapılarımızı onlara açırıq. Komandamız təhsil düşərgələrində və gənclər tədbirlərində, o cümlədən həlak olan əsgərlərin uşaqları və AZAL işçiləri üçün proqramlarda iştirak edir. Təlim mərkəzlərinə turlar və maarifləndirmə təşəbbüsləri vasitəsilə öyrənmə, məsuliyyət və təhlükəsizlik mədəniyyətini təbliğ edirik. Maarifləndirmə təşəbbüslərindən biri də uçuş təhlükəsizliyinin vacibliyini vurğulayan uçuş təhlükəsizliyi videosudur.

ƏMƏLİYYAT KOMPASIMIZ

Uçuşlar
34,034

Sərnişinlər
+4 MİLYON

İstiqamətlər
63

Təyyarələr
28

Yerli uçuşlar
21%

Beynəlxalq uçuşlar
79%

Aviaşirkət təhlükəsizlik və xidmət keyfiyyətinə qoruyub saxlamaqla ölkədə aviasiyanı inkişaf etdirməyə və qlobal əlaqələri gücləndirməyə davam edir. Davamlı səylərimiz nəticəsində 2024-cü ildə əməliyyatlarımız rekord sayda sərnişin, uçuş və istiqamətlə tarixi bir mərhələyə çatıb *(Şəkil 15)*.

Şəkil 15. 2024-cü ildə AZAL-ın əməliyyat göstəriciləri

AZAL Şərq və Qərb arasında əlaqə yaratmaqla regional aviasiya sektorunda mühüm rol oynayır. Regionun aparıcı aviaşirkətlərindən biri olaraq, biz Azərbaycanı əsas beynəlxalq istiqamətlərə bağlayır, turizm, ticarət və biznesin inkişafını dəstəkləyirik.




İSTİQAMƏTLƏRİN SAYI, 2022-2024

Son bir neçə ildə AZAL əməliyyat göstəricilərində əhəmiyyətli irəliləyişlər əldə edərək, bu müddət ərzində bir sıra əsas mərhələlərə imza atıb.

Bir tərəfdən marşrut şəbəkəmizi genişləndirdik *(Şəkil 16)*, digər tərəfdən isə donanmamızı davamlı olaraq təkmilləşdirdik və təyyarə sayını artırdıq. Bu səylər AZAL-ı daha əlaqəli, müasir və gələcəyə hazır aviaşirkətə çevirməkdə mühüm rol oynayıb. Nəticədə, Aviaşirkət xidmət keyfiyyətini artıra, təkliflərini genişləndirə və hava səyahətlərinə artan tələbatı ödəyə bilib. Bu irəliləyiş AZAL-ın 4 milyondan çox sərnişinə xidmət göstərməsi kimi tarixi bir nailiyyətlə nəticələnib. Bu göstərici 2019-cu illə müqayisədə 50% daha çoxdur. Bu rekord göstərici Aviaşirkətin pandemiyadan sonrakı effektiv bərpasının və əhəmiyyətli artımının bariz göstəricisidir.

